RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 221 (9388) 11 OKTYABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# MÖHTƏŞƏM 20 İL



## Qüdrətli lider, cəsur xalq və labüd qələbə

**Azərbaycan xalqının böyük ehtiram və məhəbbətlə qeyd etdiyi Heydər Əliyev İli tariximizə taleyüklü əhəmiyyətli hadisələrlə - möhtəşəm uğurlar, hərbi zəfərlər və strateji hədəflərin reallaşması ilə həkk olunur. Ulu Öndərin müqəddəs arzularının, vəsiyyətlərinin artıq həyata keçməsini də bütün dünya aydın görür. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və konstitusiya quruluşunun tam bərpası sevincini İlham Əliyevin prezidentliyinin 20-ci ildönümündə yaşamağımızın isə mühüm məntiqi əsasları, səbəbləri var.**

### İlham Əliyev fenomeni

Bu əsasları müxtəlif kontekslərdə izah və təsdiq etmək mümkündür. İstər qədim siyasi nəzəriyyələr, istər özünü əsrlərboyu doğrultmuş dövlətçilik fəlsəfələri, istərsə də müasir dövrün idarəçilik trendləri aspektlərində 20 illik bu mərhələ tariximizin möhtəşəm epopeyası kimi xarakterizə oluna bilər.

Hesab edirəm ki, indi çoxsaylı xarici "beyin" mərkəzlərinin baş verən proseslərdə təhlil və qiymətləndirmə üçün paradiqma kimi qəbul etdikləri bir modelə istinad etsəm, daha dəqiq nəticələr əldə edərik. Məşhur analitik-tədqiqatçı Rey Klaynın müəllifi olduğu formulun müqayisə platformasında, yəni siyasi-hərbi-iqtisadi prosesləri riyazi tənliyin şkalasında araşdırsaq, bu dövrün əsl mahiyyətini daha konkret arqumentlərlə üzə çıxarda bilərik. Klayn formulu mövzusuna keçməmiş, öncə tarixi əhəmiyyətinə görə əsrlərə bərabər olan 20 ilin əsas strateji istiqamətlərinə nəzər salaq.

İlham Əliyevin prezidentlik fəaliyyəti tariximizin birmənalı olaraq, ən möhtəşəm dövrüdür. Azərbaycan heç vaxt indiki qədər qüdrətli dövlətə, güclü iqtisadiyyata, mübariz orduya, qlobal nüfuza, tam müstəqilliyə nail olmayıb. İlham Əliyev həm tarixi problemləri həll edib, həm də perspektiv yüksəlişin etibarlı təməllərini formalaşdırıb. Dünyanın coğrafi xəritəsində kiçik görünən Azərbaycan qüdrətli və nüfuzlu lideri sayəsində dünyanın siyasi xəritəsində böyük arealı əhatə edir, geniş miqyasda tanınır, qəbul olunur.

Dahi intellektə, dərin və hərtərəfli biliyə, yüksək peşəkarlığa malik olan İlham Əliyev geosiyasət ustadı kimi qlobal platformada böyük hörmət qazanıb. Sürətlə dəyişən dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini uğurla müdafiə edib.

Müasir Azərbaycan müstəqil, heç kimdən asılı olmayan, öz sözünü deyən dövlətdir. Bunu hamı bilir və hamı qəbul edir. Prezident İlham Əliyevin qətiyyəti ilə biz son illərdə xarici siyasətdə inanılmaz hədəflərə yetişmişik. Bu siyasətin əsasında milli maraqların gerçəkləşdirilməsi amalı hər şeydən öndə dayanır. Xalq olaraq bu bölgənin liderinə çevrilmişik. Proseslərin axarına təsir göstərən, onu dəyişməyi bacaran liderlik statusu bu gün İlham Əliyev missiyasının ən mühüm göstəricilərindən, ana xətlərindən biridir.

→ 5

## Böyük zəfərə aparan İLHAM ƏLİYEV diplomatiyası

**15 oktyabr 2023-cü il Azərbaycanın zəngin dövlətçilik təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, xalqına xidməti həyat amalına çevirmiş müdrik lider, qətiyyətli şəxsiyyət və mahir siyasətçi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərliyinin 20 illiyi qeyd olunur.**

Bu dönəm ölkəmizin hərtərəfli tərəqqi və davamlı inkişaf dövrü olmaqla yanaşı, müstəqilliyimizin bərpasından əvvəl üzləşdiyi təcavüzün və işğal faktorunun aradan qaldırılması istiqamətində Azərbaycanın haqlı mövqeyinin daha da möhkəmlənməsi və səylərin intensivləşməsi kimi də xarakterizə oluna bilər. Məhz torpaqlarımızın işğaldan azad olunması, Azərbaycan bayrağının Şuşada və digər işğal olunmuş ərazilərimizdə dalğalanması bu il 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin arzusu, möhtərəm Prezident İlham Əliyevin əsas amallarından biri idi.

Azərbaycan tərəfindən uzun illər ərzində aparılan xarici siyasətin əsas cəhətlərindən biri, Qarabağın əzəli və əbədi Azərbaycan ərazisi olduğunun, dövlətimizin öz torpaqlarının işğalı ilə barışmayacağının, torpaqların ya diplomatik, ya da hərbi yolla azad edilməsinin legitim hüququ olduğunun beynəlxalq aləmin yaddaşına həkk edilməsinə nail olmaq idi. Məhz Ulu Öndər Heydər Əliyevin, daha sonra isə onun layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində uzun illər bu istiqamətdə böyük iş aparılıb və Azərbaycan həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırılıb.

→ 4




## "Boz" zonanın aradan qaldırılması, separatizmə son qoyulması beynəlxalq hüququn və ədalətin təntənəsidir

### İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına

Hörmətli iclas iştirakçıları!

Azərbaycan xalqı üçün müqəddəs olan, mədəniyyət paytaxtımız Şuşa şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası münasibətilə Sizi səmimi-qəlbdən salamlayıram.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və təşkilata üzv olan dövlətlərlə münasibətlərinə xüsusi əhəmiyyət verir. İƏT regionumuzun nəhəng iqtisadi potensialından daha səmərəli istifadə, region ölkələri arasında iqtisadiyyat və ticarət sahəsində əlaqələrin inkişaf etdirilməsi baxımından əlverişli imkanlara malikdir. Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə genişlənməsinin tərəfdarıdır. Bir neçə gün öncə Şuşa şəhərinin 2026-cı il üçün İƏT-in turizm paytaxtı elan edilməsinə görə təşəkkürümü bildirirəm.

Siz olduqca əlamətdar və tarixi dövrdə Azərbaycana gəlmisiniz. Xalqımız Azərbaycanın suverenliyini, konstitusiya quruluşunu bərpa etməsinin sevincini, qürurunu yaşayır. Otuz ildən sonra ərazilərimizdə mövcud olan "boz" zonanın aradan qaldırılması, separatizmə son qoyulması beynəlxalq hüququn və ədalətin təntənəsidir.

Azərbaycan daim sülhün tərəfdarı və bölgədə sülh təşəbbüslərinin müəllifi olub. Regional məsələlərin bilavasitə region ölkələrinin iştirakı ilə həll edilməsi prinsipindən çıxış edərək Azərbaycan 3+3 əməkdaşlıq formatını irəli sürüb. Hazırda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və Cənubi Qafqaz bölgəsinin sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi şərait yaranmışdır.

2020-ci ildə əzəli torpaqlarımız Ermənistanın işğalından azad edildikdən dərhal sonra burada irimiqyaslı bərpa-quruculuq işlərinə başlanılmışdı. Qısa zaman kəsiyində bu ərazilərdə vacib infrastruktur layihələri həyata keçirilmiş, o cümlədən iki yeni hava limanı tikilib istifadəyə verilmişdir. Üçüncü hava limanı isə hazırda Laçında inşa edilir. Füzuli şəhərində artıq inşası başa çatmış məktəbə və tikilməkdə olan yaradıcılıq mərkəzinə görə qardaş Özbəkistana və Qazaxıstana təşəkkür edirəm. Biz bunu ölkələrimiz arasında qardaşlığın, həmrəyliyin və dostluğun növbəti bariz təzahürü kimi qiymətləndiririk.

İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" proqramı milli prioritetlərimiz sırasındadır. Uğurla icra edilən proqram çərçivəsində bu günə qədər Laçın, Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə köçkünlərin qayıtması təmin olunub. Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır. Həyata keçirilən layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına xidmət etməklə, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əlverişli şərait yaradır.

30 illik işğalın Azərbaycan xalqı üçün ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizə, o cümlədən İslam dininə aid bütün abidələrə qəsdən vurulmuş ziyandır. Əfsuslar olsun ki, bu dövrdə 67 məsciddən 65-i yerlə-yeksan edilmiş, qalan məscidlərə qarşı isə heyvanların saxlanılması kimi təhqiramiz əməllər törədilmişdir. Bu günlərdə daha bir məscidin - Malıbəyli məscidinin dağıdılması və tövlə kimi istifadə edilməsi faktı aşkar edilmişdir. Bütün bunlar təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərinin təhqir olunması deməkdir.

Azərbaycanın İƏT-də sədrlik mövzusunun "Yaşıl keçid və qarşılıqlı bağlantılar" kimi müəyyən edilməsi hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Dekarbonlaşma, "yaşıl enerji" növlərinin artırılması kimi məsələlər ölkəmizin dayanıqlı inkişaf gündəliyinin əsasını təşkil edir. Eyni zamanda "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasına uyğun olaraq həyata keçirilir.

Azərbaycan, eyni zamanda etibarlı tranzit ölkədir və bizim nəqliyyat-logistika infrastrukturumuz bütün İƏT ölkələri üçün açıqdır. Şərq-Qərb marşrutu üzrə yükdaşımalara tələbatın artdığını nəzərə alaraq biz Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınan yüklərin həcminin 1 milyon tondan 5 milyon tona çatdırmağı hədəfləyirik. Həmçinin İran İslam Respublikasının ərazisi vasitəsilə Naxçıvan Muxtar Respublikasına çıxış imkanı yaradacaq avtomobil və dəmir yolunun çəkilməsi barədə bu ölkə ilə razılıq əldə olunmuşdur. Azərbaycan, eyni zamanda "Şimal-Cənub" nəqliyyat dəhlizinin ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi üzərində fəal çalışır.

Əminəm ki, bu iclas ölkələrimizin və bütövlükdə regionun davamlı inkişafı və rifahı naminə yeni əməkdaşlıq imkanları ətrafında faydalı fikir mübadiləsi aparmaq və səyləri əlaqələndirmək üçün əhəmiyyətli platforma olacaq, qarşılıqlı faydalı tərəfdaşlığın yeni məzmunla zənginləşməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, iclasın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 oktyabr 2023-cü il*

## Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər həqiqətən müttəfiqlik xarakteri daşıyır

### Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin gündəliyindəki məsələlərin çox geniş olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından keçən dövrün ikitərəfli münasibətlərimizin həqiqətən müttəfiqlik xarakteri daşıdığını nümayiş etdirdiyini dedi və bunun bütün sahələrdə özünü göstərdiyini vurğuladı.

Azərbaycan Prezidenti regional təhlükəsizlik, iqtisadi əlaqələr, nəqliyyat və digər sahələrlə bağlı əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Nikolay Patruşev ilk növbədə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

→ 2

## Strateji əməkdaşlığa Şuşa töhfəsi

### İƏT Nazirlər Şurası İslam mədəniyyətinin paytaxtında toplaşdı

**Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) sədrliyi çərçivəsində oktyabrın 10-da Şuşa şəhərində Xarici İşlər Nazirləri Şurasının 27-ci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iclas iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə postmünaqişə dövründə bölgədə yaranmış əməkdaşlıq perspektivləri öz əksini tapıb. Həmçinin ölkəmizin təşəbbüsü ilə İƏT-in illik mövzusunun "Yaşıl keçid və qarşılıqlı bağlantılar" olaraq müəyyən edildiyi, habelə Azərbaycanın milli, o cümlədən beynəlxalq səviyyədə bu istiqamətdə ardıcıl addımlar atdığı diqqətə çatdırılıb. Bu çərçivədə, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılmasının qeyd olunan istiqamətlərdə görülən işlərin təcəssümü olduğu vurğulanıb.

İƏT-in sədri qismində açılış nitqi ilə çıxış edən nazir Ceyhun Bayramov Azərbaycanın "Yaşıl keçid və qarşılıqlı əlaqəlilik" mövzusuna əsaslanan sədrliyi dövründə ölkəmiz tərəfindən irəli sürülən təşəbbüslərə göstərilən dəstəyə və fəal iştirakçılığa görə təşəkkürünü bildirib. O, eyni zamanda "İƏT Baxışı - 2025" sənədində də əks olunmuş regional bağlantıların inkişafı, iqtisadi transformasiya, "yaşıl enerji" kimi prioritetlərin bundan sonra da irəlilədəcəyinə inamını ifadə edib.

→ 2

# Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər həqiqətən müttəfiqlik xarakteri daşıyır

## Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edib



*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad etdi.

Dövlətimizin başçısı Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə Ümummilli Liderin xatirəsinə ehtiram əlaməti olaraq Rusiyada dövlət səviyyəsində tədbirlərin keçirilməsinə görə minnətdarlığını bildirdi.

Qonaq Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından sonra əlaqələrimizin daha da genişləndiyini məmnunluqla vurğuladı.

Görüşdə qlobal və regional məsələlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, regional əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı regional məsələlərin 3+3 formatında region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini vurğuladı, bu formatda müvafiq səviyyələrdə görüşlərin keçirilməsini qeyd etdi.

Söhbət zamanı "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişaf etdirilməsi istiqamətində Azərbaycan-Rusiya-İran arasındakı əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# "Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1986-cı il iyunun 24-də Cenevrə şəhərində qəbul edilmiş "Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2023-cü il*

# E.N.Hüseynlinin Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Nəriman oğlu Hüseynli Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2023-cü il*

# R.R.Nəsibovun Azərbaycan Respublikasının Efiopiya Federativ Demokratik Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ruslan Rafael oğlu Nəsibov Azərbaycan Respublikasının Efiopiya Federativ Demokratik Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2023-cü il*

# Ə.F.Şıxəliyevin Azərbaycan Respublikasının Hindistan Respublikasında, eyni zamanda Şri-Lanka Demokratik Sosialist Respublikasında, Maldiv Respublikasında, Nepalda, Banqladeş Xalq Respublikasında və Butan Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əşrəf Fərhad oğlu Şıxəliyev Azərbaycan Respublikasının Hindistan Respublikasında, eyni zamanda Şri-Lanka Demokratik Sosialist Respublikasında, Maldiv Respublikasında, Nepalda, Banqladeş Xalq Respublikasında və Butan Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2023-cü il*

# Baş nazir Əli Əsədov İndoneziyanın inzibati və bürokratik islahatlar naziri ilə görüşüb



Oktyabrın 10-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov İndoneziya Respublikasının inzibati və bürokratik islahatlar naziri Abdullah Azvar Anas ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə İndoneziya arasında qarşılıqlı hörmət və dostluğa əsaslanan münasibətlərin mövcud olduğu vurğulanaraq, ötən ilin iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasının 30-cu ildönümü ilə əlamətdar olduğu qeyd edilib.

Siyasi sahədə uğurlu əməkdaşlıq barədə söhbət açan Ə.Əsədov beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı dəstəyi bu əməkdaşlığın mühüm faktorlarından biri kimi dəyərləndirib.

Baş nazir ölkələr arasında ticarət dövriyyəsinin 2022-ci ildə 5 dəfə artdığını nəzərə çatdıraraq, bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Tərəflər ölkələr arasında vətəndaşlara dövlət xidməti sahəsində uğurlu əməkdaşlığın mövcudluğunu təsdiq edərək 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə İndoneziyanın İnzibati və Bürokratik İslahatlar Nazirliyi arasında imzalanan əməkdaşlıq haqqında Anlaşma Memorandumunun icrası ilə əlaqədar fikir mübadiləsi aparıblar.

Qeyd edilib ki, Memorandumun icrası çərçivəsində İndoneziyada "ASAN xidmət" modeli əsasında Dövlət Xidmətləri mərkəzləri fəaliyyət göstərməkdədir. Bundan əlavə, İndoneziya tərəfinin müvafiq sahə üzrə fəaliyyət göstərən dövlət qulluqçularına "ASAN xidmət" ekspertləri tərəfindən ölkəmizdə müxtəlif istiqamətlər üzrə mütəmadi olaraq təlimlər keçirilir.

Görüşdə, həmçinin iki ölkə arasında sərmayələrin qoyuluşu, enerji, humanitar və bir çox digər sahədə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

# "Cənubi Qafqazda dinc həyat qurulmasının vaxtı gəlib çatıb"

Bakı ilə İrəvan tərəfindən iki ölkənin suverenliyinin qarşılıqlı şəkildə tanınmasının ardından Cənubi Qafqazda dinc həyat qurulmasının vaxtı gəlib çatıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov oktyabrın 10-da dərc olunmuş "BMT Nizamnaməsinin prinsiplərinə onların bütün məcmusu və qarşılıqlı əlaqələri ilə əməl edilməsi beynəlxalq sülhün və sabitliyin rəhnidir" adlı məqaləsində yazıb. Rusiyalı nazir hesab edir ki, hazırda Brüssel öz siyasi ambisiyaları fonunda Azərbaycan və Ermənistana "vasitəçilik xidmətləri" üzrə şərtlərini diktə edir və Vaşinqtonla birlikdə Cənubi Qafqaza qeyri-sabitlik gətirir.

Sergey Lavrov qeyd edib: "İrəvan və Bakı rəhbərlərinin öz aralarında iki ölkənin suverenliyinin qarşılıqlı olaraq tanınması məsələsinin nizamlandığı bir şəraitdə dinc həyat qurulmasının, etimadın möhkəmləndirilməsinin vaxtı gəlib çatıb. Rusiyanın sülhməramlı kontingenti bu prosesə hər cür dəstək verməyə hazırdır".

# Strateji əməkdaşlığa Şuşa töhfəsi

## İƏT Nazirlər Şurası İslam mədəniyyətinin paytaxtında toplaşdı









*Əvvəli 1-ci səh.*

Daha sonra milli səviyyədə çıxış edən nazir ölkəmizin İƏT-ə sədrliyi dövründə təşkilatın digər regional və beynəlxalq platformalarla əməkdaşlığının gücləndirilməsi istiqamətində həyata keçirilən təşəbbüsləri qeyd edib. Ölkəmizin müxtəlif sahələr üzrə əməkdaşlığın gücləndirilməsində maraqlı olduğu, bu xüsusda təşkilatın ixtisaslaşdırılmış iki qurumuna - İƏT Enerji Mərkəzi və İƏT Tədqiqat Mərkəzinə evsahibliyi etməsinin müvafiq sahələr üzrə əməkdaşlığa verilən töhfənin göstəricisi olduğu bildirilib.

Bölgədə mövcud vəziyyət və postmünaqişə dövrünün reallıqları barədə danışan nazir Ceyhun Bayramov Azərbaycanın hər zaman regional sülh və təhlükəsizliyə təhdid yaradan qeyri-qanuni erməni silahlı qüvvələrinin bölgədə mövcudluğuna beynəlxalq diqqəti çəkmək üçün səy göstərdiyini vurğulayıb. Bölgədə sülh və reinteqrasiya proseslərini təhdid edən qanunsuz erməni silahlı qüvvələrinin təxribatlarına, mina təhdidini davam etdirməsinə və mövcudluğuna son qoyan lokal antiterror tədbirlərindən bəhs edən Ceyhun Bayramov bu tədbirlər nəticəsində xüsusilə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası prosesinin intensivləşdiyini diqqətə çatdırıb. Hazırda yerli erməni sakinlərin iqtisadi, sosial, humanitar ehtiyaclarının qarşılanması istiqamətində işçi qrupunun yaradılmasının, aidiyyəti üzrə tədbirlərin görülməsinin və Azərbaycan Hökumətinin nümayəndəsi ilə həmin sakinlərin nümayəndələri arasında dialoqun davam etdirilməsinin bölgədə guya "etnik təmizləmə" aparılması ilə bağlı iddiaların əsassız olduğunu bir daha sübut etdiyi vurğulanıb. Bu xüsusda, Azərbaycanın bölgədə sülh və reinteqrasiya üçün yaranmış tarixi fürsətin əldən verilməməsi, Azərbaycan və Ermənistan arasında normallaşma gündəliyi, habelə ərazilərimizdə yaşayan erməni sakinlərin reinteqrasiyası prosesinin irəlilədilməsində qərarlı olduğu diqqətə çatdırılıb.

İclas üzv və müşahidəçi ölkələrin, beynəlxalq tərəfdaşlar və İƏT-in ixtisaslaşmış qurumlarının nümayəndələrinin bəyanatları, İƏT çərçivəsində regional əməkdaşlığın gələcək inkişafı ilə bağlı təşəbbüs və təkliflərin, habelə iclasın gündəliyində duran digər məsələlərin müzakirəsi ilə davam edib.

Tədbir zamanı, həmçinin özündə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və kommunikasiyaların açılması istiqamətində görülən işlər, xüsusilə bu istiqamətdə Azərbaycan və İran arasında yeni dəmir yolunun inşasını nəzərdə tutan 2023-cü il 6 oktyabr tarixli Niyyət Protokolu və keçirilən təməlqoyma mərasimi barədə məlumatın da əks olunduğu İƏT bölgəsində Yaşıl keçid və qarşılıqlı bağlantılar üzrə Şuşa Bəyannaməsi qəbul olunub.

Sonda iclasın yekunlarına dair gələcək regional əməkdaşlığın növbəti addımlarını müəyyən edən bəyanat qəbul olunub, habelə Azərbaycanda təsis olunmasına qərar verilən İƏT-in Təmiz Enerji Mərkəzinin Nizamnaməsi Türkiyə tərəfindən imzalanıb.

Daha sonra Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və İƏT-in Baş katibi Xusrav Noziri iclasın yekunları ilə bağlı mətbuata bəyanatlarla çıxış ediblər.

Mətbuat konfransında çıxış edən nazir Ceyhun Bayramov İƏT-ə sədrliyimizin ən önəmli tədbiri olan Nazirlər Şurasının 27-ci iclasının Azərbaycanın tarixi şəhəri, o cümlədən İƏT-in turizm paytaxtı Şuşada keçirilməsinin simvolik əhəmiyyət daşıdığını qeyd edib. İclas çərçivəsində qəbul olunmuş Şuşa Bəyannaməsinin İƏT çərçivəsində əməkdaşlığın inkişafına töhfə verəcəyinə dair inam ifadə olunub.

# Rumıniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib

## Milli Məclisin Sədri Sahibə Qafarova Rumıniya Parlamentinin Deputatlar Palatasının Sədri ilə görüşüb





Milli Məclisin Sədri Sahibə Qafarova Rumıniyaya rəsmi səfəri çərçivəsində oktyabrın 10-da bu ölkə Parlamentinin Deputatlar Palatasının Sədri Alfred-Robert Simonis ilə görüşüb.

Mlli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Alfred-Robert Simonis bu səfərin iki ölkənin parlamentləri arasında əməkdaşlığın inkişafına, dostluq münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verəcəyinə inamını ifadə edib. Ölkələrimiz arasında sıx əlaqələrin olduğunu deyən Deputatlar Palatasının Sədri Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya, Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycana səfərlərinin münasibətlərin daha da möhkəmlənməsinin təzahürü olduğunu bildirib.

Deputatlar Palatasının Sədri iki ölkənin parlamentləri arasında əlaqələrin inkişafı, bu sahədə dostluq qruplarının rolu, həmçinin Rumıniya ilə Azərbaycan arasında enerji sahəsində həyata keçirilən birgə layihələrin Avropanın enerji təhlükəsizliyinə töhfəsi barədə fikirlərini bölüşüb. O, Rumıniya üçün çətin vaxtlarda Azərbaycanın göstərdiyi yardıma görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edən spiker Sahibə Qafarova, bu səfərin onun Milli Məclisin Sədri kimi Rumıniyaya ilk rəsmi səfəri olduğunu və ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inamını bildirib.

Görüşdə vurğulanıb ki, Rumıniya dünyada ikinci və Avropa İttifaqı ölkələri arasında Azərbaycanın müstəqilliyini tanıyan birinci ölkədir. Ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd edilib. Bu gün Azərbaycanla Rumıniya arasında dostluq münasibətləri strateji tərəfdaşlıq səviyyəsində inkişaf edir. Azərbaycan və Rumıniya beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edirlər.

İkitərəfli münasibətlərin inkişafında siyasi təmasların müstəsna rolunu vurğulayan spiker Sahibə Qafarova deyib ki, dövlət başçılarının qarşılıqlı səfərləri ölkələrimiz arasında yüksək səviyyəli fəal siyasi dialoqun daha da inkişafına xidmət edir.

Görüşdə enerji əməkdaşlığının ikitərəfli əlaqələrin əsas sahələrindən biri olduğu diqqətə çatdırılaraq qeyd edilib ki, bu ildən Azərbaycan qazının Rumıniyaya ixracına başlanılıb və növbəti illərdə bu əməkdaşlıq daha da möhkəmlənəcək. Həmçinin ölkələrimiz arasında bərpa olunan enerji sahəsində də əməkdaşlıq üçün yeni perspektivlər yaranıb.

Spiker Sahibə Qafarova Azərbaycanda müxtəlif sahələrə investisiya imkanları, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işləri, Azərbaycanın müasir nəqliyyat infrastrukturu və tranzit ölkə kimi mühüm rolunu nəzərə alaraq, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün mövcud olan geniş imkanlar barədə məlumat verib.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycanla Rumıniya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərimizin qarşılıqlı fəaliyyətidir.

Sahibə Qafarova xatırladıb ki, bu ilin mayında Milli Məclisin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında Rumıniya Parlamentinin Deputatlar Palatasının vitse-prezidenti Vasile Daniel Suçiu da iştirak edib.

Dostluq qruplarının birgə fəaliyyətinin vacibliyi, onların müntəzəm təmaslarının, dialoq və fikir mübadiləsinin parlamentlərimiz arasında körpü rolunu oynadığı diqqətə çatdırılıb. Bildirilib ki, ötən il Milli Məclisin işçi qrupu Rumıniyada, Rumıniya parlamentinin dostluq qrupu isə Azərbaycanda səfərdə olublar. Rumıniyalı deputatlar işğaldan azad edilmiş ərazilərimizə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya da səfər ediblər. Ermənistan tərəfindən dağıdılan bu ərazilərdə hazırda Azərbaycan tərəfindən aparılan geniş quruculuq və yenidənqurma işləri ilə tanış olublar.

Görüşdə parlament komitələrinin fəaliyyəti ilə parlamentlər arasında əlaqələrin daha da dərinləşdirilməsi, hüquqi, iqtisadi, humanitar və digər sahələrdə qanunvericilik fəaliyyətində təcrübə mübadiləsi üçün əməkdaşlıq imkanları müzakirə olunub.

Həmçinin qeyd edilib ki, parlamentlərimiz arasında beynəlxalq parlament təşkilatları çərçivəsində sıx əməkdaşlığı daha da inkişaf etdirmək lazımdır. Bu beynəlxalq parlament institutlarında nümayəndə heyətlərimiz arasında birbaşa məsləhətləşmə mexanizminin yaradılması mümkündür. Bu təşkilatlar daxilində yaranan müxtəlif məsələlərdə mövqelərin və əməkdaşlığın əlaqələndirilməsi çox faydalı olar.

Görüşdə spiker Sahibə Qafarova bölgədə mövcud vəziyyət barədə qarşı tərəfə geniş məlumat verərək bildirib ki, Azərbaycan işğal qurbanı olmasına baxmayaraq, sülhdən danışmağa başlayan və beynəlxalq hüququn 5 prinsipinə, o cümlədən ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmətə əsaslanan sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış edib. Sahibə Qafarova Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü davamlı dəstəklədiyinə görə Rumıniya tərəfinə təşəkkür edib.

O, diqqətə çatdırıb ki, Ermənistan üç ildir ki, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozmaq üçün bütün vasitələrdən istifadə edib, o cümlədən hərbi-siyasi təxribatlar, ərazilərin minalanması, Azərbaycan ərazilərində separatizmin dəstəklənməsi kimi təxribatçı addımlarını davam etdirib. Həmçinin Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın 10 minlik silahlı qüvvələri, qanunsuz marionet rejiminin mövcudluğu və davamlı hərbi təxribatlar ölkəmizi lokal antiterror tədbirləri görməyə məcbur etdi. Spiker xüsusilə vurğulayıb ki, bu tədbirlər yalnız qeyri-qanuni hərbi birləşmələri və hərbi infrastrukturu hədəfə alıb, mülki əhaliyə və obyektlərə heç vaxt hücum edilməyib. O, bununla bağlı iddiaların əsassız olduğunu vurğulayıb.

Terrorla mübarizə tədbirlərinin 24 saatdan az müddətdə öz məqsədinə çatdığını, separatçı rejimin qanunsuz strukturlarının dağıdıldığını və Azərbaycanın öz suverenliyini bərpa etdiyini bildirən Sahibə Qafarova qeyd edib ki, artıq Qarabağ bölgəsinin etnik ermənilərinin reinteqrasiya prosesinin həyata keçirilməsinə başlanılıb. Qısa müddət ərzində Azərbaycan hökumətinin xüsusi nümayəndəsinin Qarabağın erməni sakinlərinin nümayəndələri ilə üç görüşü keçirilib. Onun sözlərinə görə, Azərbaycan vətəndaşı olacaq şəxslərin bütün hüquqları və təhlükəsizliyi təmin olunacaq.

Spiker diqqətə çatdırıb ki, heç kim etnik erməni sakinləri Qarabağı tərk etməyə məcbur etməyib. Bununla bağlı bir dənə də olsun fakt yoxdur. Gedənlər bunu öz seçimləri ilə ediblər və Azərbaycan onların hərəkətinin təhlükəsizliyini təmin edib. Milli Məclisin Sədri xatırladıb ki, BMT-nin ölkədəki Rezident Əlaqələndirici Ofisinin və BMT-nin ixtisaslaşmış qurumlarının təmsilçilərindən ibarət nümayəndə heyəti əraziyə səfər etmişdi. Onların sonrakı bəyanatı dinc əhaliyə, mülki və sosial infrastruktura qeydə alınmış hər hansı zərərin olmadığını təsdiqləyib.

Spiker Sahibə Qafarova görüşdə həmçinin bir sıra dairələrin Azərbaycana münasibətdə nümayiş etdirdiyi qərəzli mövqeyini, ikili standartlara söykənən ədalətsiz yanaşmanı tənqid edib.

Deputatlar Palatasının Sədri Alfred-Robert Simonis deyib ki, indi müşahidə olunan vəziyyətə baxmayaraq, zaman kimin haqlı olduğunu göstərəcək. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəklədiyini, Qarabağda keçirilən qondarma "seçkiləri" tanımadığını bildirib. Onun sözlərinə görə, qanunun aliliyinə və suverenliyə hörmət bu ölkənin ənənəsidir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

*"Azərbaycan"*

# Qarşılıqlı səfərlər əməkdaşlığın inkişafına təkan verir

## Milli Məclisin Sədri Sahibə Qafarova Rumıniya Parlamenti Senatının Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 10-da Rumıniya Parlamenti Senatının Sədri Nikolae Çuka ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair müzakirələr aparılıb.





Azərbaycan parlamentinin sədrini səmimiyyətlə salamlayan Nikolae Çuka bu səfərin iki ölkə, o cümlədən parlamentlərimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib. O, Azərbaycan və Rumıniya arasında dərin dostluq əlaqələrinin olduğunu qeyd edib, ölkələrimizin bir çox sahələrdə əməkdaşlığını diqqətə çatdırıb.

Nikolae Çuka dövlətlərimiz arasında olan yüksək səviyyəli münasibətlərin qanunverici orqanlar arasında da əməkdaşlığın daha da inkişafı üçün yaxşı imkanlar yaratdığını, parlamentarilərin, dostluq qruplarının təmaslarının önəmini vurğulayıb. Senatın sədri Azərbaycan parlamentinin spikerinin bu səfərinin əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində müzakirələr aparmaq baxımından önəmini qeyd edib və bu səfərin əməkdaşlığın yüksək səviyyəsinin göstəricisi olduğunu söyləyib. O, müxtəlif vəzifələrdə çalışarkən Azərbaycana səfər etdiyini bildirib və xoş təəssüratlarını bölüşüb.

Nikolae Çuka Azərbaycanla Rumıniya arasında bir çox sahələrdə, o cümlədən, enerji, nəqliyyat, səhiyyə, təhsil sahələrində əməkdaşlığın daha da inkişafı üçün böyük potensial olduğunu bildirib. O, deyib ki, Azərbaycanın enerji təhlükəsizliyi sahəsində beynəlxalq ictimaiyyəti nə qədər dəstəklədiyi göz qabağındadır.

Azərbaycan parlament nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən spiker Sahibə Qafarova Azərbaycan Milli Məclisinin Sədri kimi Rumıniyaya ilk rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında dostluq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin və görüşlərin əhəmiyyəti qeyd olunub.

İki ölkənin qanunverici orqanları arasında da əməkdaşlıqdan danışan Milli Məclisin Sədri deyib ki, Azərbaycan ilə Rumıniya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərin qarşılıqlı fəaliyyətidir. Qarşılıqlı səfərlər bu əməkdaşlığın inkişafına təkan verir. Sahibə Qafarova parlament komitələrinin, dostluq qruplarının işi vasitəsilə parlamentlər arasında əlaqələrin daha da dərinləşdirilməsi imkanları barədə də danışıb, Azərbaycan və Rumıniyanın beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlığını qeyd edib.

Milli Məclisin Sədri Vətən müharibəsindən sonra regionda yaranmış yeni vəziyyət, Azərbaycanın antiterror tədbirləri nəticəsində bir gün ərzində suverenliyini bərpa etməsi barədə məlumat verib. Spiker bildirib ki, işğal qurbanı olmasına baxmayaraq, sülhdən danışmağa başlayan və beynəlxalq hüququn 5 prinsipinə, o cümlədən bir-birinin ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmətə əsaslanan sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış edən Azərbaycandır. Sahibə Qafarova Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü davamlı dəstəklədiyinə görə Rumıniya tərəfinə təşəkkür edib.

Milli Məclisin Sədri 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbədən sonra ötən üç il ərzində Ermənistan tərəfindən törədilən siyasi və hərbi təxribatlar, ərazilərimizin minalanması, mina partlayışları nəticəsində çoxsaylı hərbçi və mülki şəxslərin həlak olması, Azərbaycan ərazisində separatizmin dəstəklənməsi və digər faktları diqqətə çatdırıb. O deyib ki, işğal dövrü Ermənistanın tarixində qara ləkədir. Spiker həmçinin Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu xatırladıb.

Görüşdə həmçinin Azərbaycanın lokal antiterror tədbirləri, onun nəticələri, Qarabağın ermənəsilli sakinlərinin reinteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər barədə də danışılıb.

Nikolae Çuka ölkəsinin Azərbaycanın hər zaman ərazi bütövlüyünü tanıdığını, sülh planını dəstəklədiyini bir daha bəyan edib, ərazilərin minalanmasının dəhşətli nəticələrə gətirib çıxardığını deyib, danışıqlar nəticəsində tezliklə sülh sazişinin imzalanacağına ümidvar olduğunu bildirib.

Milli Məclisin Sədri görüşdə həmçinin Azərbaycanın multikultural dəyərləri, ölkəmizdə fərqli dinlərə aid mədəniyyət və dini abidələrin qorunması haqqında da məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

*"Azərbaycan"*

# Parlament "Energetika haqqında" qanun layihəsini ikinci oxunuşda müzakirə edəcək

Oktyabrın 10-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Sadiq Qurbanov iclasda "Energetika haqqında" Azərbaycan Respublikası Qanunu layihəsi (ikinci oxunuş) və cari məsələ olaraq qəbul edilmiş qanunların icrası mexanizmləri ilə bağlı müzakirələrin aparılacağını söyləyib.



Sadiq Qurbanov əvvəlcə, "Energetika haqqında" qanun layihəsini təqdim edib. O, indiyədək bu sahədə enerji səmərəliliyi, qaz təchizatı, bərpa olunan enerji, elektroenergetika ilə bağlı qanunların qəbul edildiyini, onların təqdim edilən bu qanun layihəsinə əsaslanacağını bildirib. Komitə sədri bu sahədə monopoliyanın aradan qaldırılması, yeni istehsalçıların yaradılması və bir sıra digər prioritet istiqamətlərin müəyyənləşdirildiyini, islahatların nəzərdə tutulduğunu deyib.

6 fəsil, 28 maddədən ibarət "Energetika haqqında" qanun layihəsi energetika sahəsində fəaliyyətin ümumi hüquqi, iqtisadi və idarəetmə əsaslarını, habelə enerji təhlükəsizliyinin təmin edilməsinin, sağlam rəqabət mühitinin formalaşdırılmasının, davamlı iqtisadi inkişafın dəstəklənməsinin, istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və təhlükəsiz enerji ilə təmin edilməsinin mexanizmlərini müəyyən edir.

Qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitə sədri Sadiq Qurbanov parlamentdə qəbul edilmiş qanunların insanların həyat şəraitinin və fəaliyyətinin yaxşılaşdırılmasına xidmət etdiyini deyib. O, qanunvericiliyin təkmilləşdirilməsi ilə yanaşı, qəbul edilmiş qanunların işləmə mexanizminə nəzarətin həyata keçirilməsinin də vacibliyini qeyd edib. Komitə sədri dövlət siyasətinin prioritet istiqamətlərindən birinin ekoloji tarazlığın qorunub saxlanılması ilə bağlı olduğunu söyləyib. Bildirib ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində ekoloji mühitin qorunması əsas məsələlərdən biri kimi göstərilib, bununla bağlı əsas strateji hədəflər müəyyənləşdirilib.

Sadiq Qurbanov iclasda "Ətraf mühitin mühafizəsi haqqında" qanunun icrası ilə bağlı məsələnin müzakirəyə çıxarıldığını deyərək, bu sənədin ekoloji təhlükəsizliyin təmin edilməsində əhəmiyyətini qeyd edib.

İclasda iştirak edən Ekologiya və Təbii Sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə iqtisadiyyat və ətraf mühit məsələlərinin uyğunluğunun təmin edilməsinin vacibliyindən danışıb. O, bu sahədə Azərbaycanın milli qanunvericiliyi ilə yanaşı, beynəlxalq öhdəliklərinin də olduğunu qeyd edib. Ekologiya sahəsində qanunvericiliyin icrası, buna nəzarətin həyata keçirilməsi, bu sahədə yaranan problemlər və onların aradan qaldırılması ilə bağlı görülən işlərdən, təbliğat-təşviqat tədbirlərinin əhəmiyyətindən bəhs edib. Rasim Səttarzadə qalınlığı 15 mikrona qədər olan polietilen torbaların istifadəsinin nizamlanması, plastik tullantıların ətraf mühitə təsirinin azaldılması məsələsinə toxunaraq, bu sahədə mövcud olan qanunlara riayət edilməsi ilə bağlı ticarət mərkəzlərində həyata keçirilən tədbirləri diqqətə çatdırıb. O, ekoloji sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə də bağlı bəzi fikirlərini açıqlayıb.

Məsələ ilə bağlı təqdimatla çıxış edən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini Elnur Bağırov bildirib ki, "Ətraf mühitin mühafizəsi haqqında" qanunun 46-cı maddəsinə əsasən, qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi qadağandır. O, qeyd edib ki, qanunun bu tələblərinin pozulmasına görə İnzibati Xətalar Məcəlləsində məsuliyyət tədbirləri nəzərdə tutulur. Bildirilib ki, ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı istehlakçılar tərəfindən məhsulların daşınması üçün nəzərdə tutulan qalınlığı 15-50 mikron olan qulplu və qulpsuz yüngül çəkili polietilen torbalar istehlakçılara ayrıca məhsul növü kimi təqdim edilməli, bu növ məhsulların ayrıca təqdim edildiyi və onların satış qiyməti barədə istehlakçılara əvvəlcədən məlumat verilməlidir.

Sonra məsələ ətrafında müzakirələr aparılıb.

Komitə üzvü Afət Həsənova Suraxanı rayonunun Zığ və Hövsan qəsəbələrində ekoloji sahədə olan bəzi problemlərdən, o cümlədən axıdılan çirkab suları, neft tullantıları, torpaq sürüşmələri nəticəsində ətraf mühitə dəyən zərərdən danışıb. Deputatlar İltizam Yusifov və Naqif Həmzəyev ətraf mühitin mühafizəsi, ekologiyanın qorunması sahəsində ölkədə mövcud durum barədə bir sıra qeyd və təkliflərini açıqlayıblar.

Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov qəbul edilən qanunların icrası ilə bağlı qanunvericilik və icra orqanları arasında əməkdaşlığın vacibliyini qeyd edib.

*"Azərbaycan"*

# RF XİN: "Qarabağda Rusiya sülhməramlılarının fəaliyyəti yeni şəraitə uyğunlaşdırılacaq"




"Rusiya sülhməramlı kontingentinin Qarabağda yerləşməsi şərtlərində ciddi dəyişikliklər edilib". AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

O deyib: "Rusiya sülhməramlı kontingentinin regionda yerləşməsi şərtlərində ciddi dəyişikliklər edilib, sülhməramlıların fəaliyyəti yeni şəraitə uyğunlaşdırılacaq".

M.Zaxarova xatırladıb ki, hazırda Rusiya sülhməramlılarının bir neçə stasionar və müvəqqəti müşahidə postları bağlanılıb. O əlavə edib: "Bizim sülhməramlılara aid prinsipial məsələlər Bakı ilə müzakirə olunur. Rusiya, Azərbaycan və Ermənistan arasında danışıqların yeni raundunun keçirilməsi imkanları və tarixi barədə mütləq məlumat verəcəyik".



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# Böyük zəfərə aparan İLHAM ƏLİYEV diplomatiyası




*Əvvəli 1-ci səh.*

Baxmayaraq ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam olaraq döyüş meydanında qazandı, aparılmış siyasi və diplomatik səylər bu qələbənin mübahisələndirilməməsi və diplomatik zəmin yaradılması istiqamətində əsas rol oynadı.

## Böyük zəfərin təməli

Azərbaycan Prezidentinin əzmkarlığının, xalqın birlik ruhunun və ordumuzun şücaətinin ölkəmizin qələbə əzmini möhkəmləndirdiyi hər kəsə məlumdur. Bununla yanaşı, Prezident İlham Əliyevin 27 sentyabr 2020-ci il tarixdə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Vətən müharibəsi başlayan zaman xalqa müraciətində - "Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir..." - sözləri böyük zəfərə aparan xarici siyasətin təməli olduğunu desək, yanılmarıq.

Məlum olduğu kimi, keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı ölkəmizin mövqeyinin həm dövlətlər tərəfindən ikitərəfli əsasda qəbul olunmuş sənədlərdə, həm də beynəlxalq təşkilatların qərar və qətnamələrində öz əksini tapması daim Azərbaycan xarici siyasətinin əsas vəzifələrindən biri olub. Beynəlxalq təşkilatların təcavüzkar Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən və münaqişənin ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığına hörmət daxil olmaqla, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə çağıran çoxsaylı sənədlər aparılan işin mühüm bəhrəsidir. Qeyd olunan mövqe BMT-nin Təhlükəsizlik Şurası, Baş Assambleyasının müvafiq qətnamələrində, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platforma və təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə birmənalı şəkildə ifadə olunub.

Beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə münaqişənin həlli ilə bağlı konkret şəkildə ifadə olunan vacib elementlər Azərbaycanın mövqeyinin daha da möhkəmlənməsinə daim xidmət edib.

Birinci növbədə, Azərbaycanın ərazi bütövlüyünün tanınması və Qarabağın Azərbaycan ərazisinin tərkib hissəsi olduğunun təsdiqlənməsi beynəlxalq hüququn Azərbaycanın tərəfində olduğunu sübut edib. Ümumiyyətlə, işğalçı dövlət istisna olmaqla, Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünə heç bir dövlət və ya təşkilat tərəfindən şübhə ilə yanaşılmaması və bunun beynəlxalq təşkilatların qərarlarında açıq-aşkar təsbit olunması ölkəmizin mövqeyini gücləndirən əsas amillərdən biri kimi xarakterizə oluna bilər.

İkinci, işğalın aradan qaldırılması və işğalçı qüvvələrin Azərbaycan ərazilərini tərk etməsinin tələb olunması Azərbaycan tərəfindən əsas təzyiq vasitəsi kimi geniş şəkildə istifadə olunan bir fakt idi.

Üçüncü, qaçqın və məcburi köçkünlərin öz evlərinə geri qayıtmaq hüququnun təsbit edilməsi istiqamətində Azərbaycan diplomatiyasının səyləri və bir sıra beynəlxalq təşkilatların qərarlarında bu müddəaya yer verilməsi digər uğurlu bir addım kimi qeyd edilə bilər. Bir milyonadək insanımızın hüquqlarının pozulması, onların qaçqın və məcburi köçkünə çevrilməsi, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması faktlarının beynəlxalq ictimaiyyətə tanıdılması əsas fəaliyyət istiqamətlərindən biri kimi diqqət mərkəzində olub.

Qeyd edilən istiqamətlərlə yanaşı, Ermənistanın davam edən təcavüzü çərçivəsində Azərbaycanın işğal altında olan ərazilərində işğalçı Ermənistan tərəfindən həyata keçirilən qanunsuz fəaliyyət, o cümlədən işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin aparılması, bu torpaqlardakı Azərbaycan xalqının zəngin tarixi, mədəni, dini irsinin məhv və talan edilməsi, təbii sərvətlərin qanunsuz istismarı, bu ərazilərdəki şəxsi və ictimai mülkiyyətin qanunsuz mənimsənilməsi və digər qeyri-qanuni addımların ifşa edilməsi, bu istiqamətdə siyasi və hüquqi prosedurlardan istifadə Prezident İlham Əliyev tərəfindən son 20 il ərzində aparılmış fövqəladə siyasətin təməllərindən hesab olunur.

Bununla yanaşı, bir çox beynəlxalq təşkilatda və ikitərəfli dövlətlərarası münasibətlər çərçivəsində məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasının təşviq olunması, Azərbaycan ərazisində qanunsuz Ermənistan silahlı birləşmələrinin mövcudluğunun, Ermənistanın hərbi texnikasının Azərbaycan ərazilərində qanunsuz yerləşməsinin müxtəlif faktlarla daimi əsasda ifşa olunması diplomatik fəaliyyətin əhəmiyyətli hissəsini təşkil edib. Erməni terrorizminin maliyyələşdirilməsi, Ermənistanın bölgəmizdə yerləşdirdiyi xarici terrorçu döyüşçülər məsələsi, separatizm və zorakı ekstremizm və digər qeyri-qanuni fəaliyyətlər daim əsas diqqət mərkəzində olub.

Cənab Prezidentin seçkilərdə qalib gəlməsindən qısa müddət sonra, 2004-cü ildə Azərbaycan tərəfindən BMT Baş Assambleyasında Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirdiyi qanunsuz fəaliyyəti, o cümlədən qanunsuz məskunlaşdırma məsələsinin qaldırılması və bu istiqamətdə əməli addımlar həyata keçirilməsi məhz bu gün Azərbaycana qarşı irəli sürülə biləcək iddiaların qarşısını almağa xidmət edir. Keçmiş münaqişənin siyasi və iqtisadi aspektləri ilə bağlı qəbul olunan qətnamələrlə yanaşı, ölkəmizin tarixi, mədəni və dini abidələrinin dağıdılması məsələsinə daim diqqət yetirilməsi prioritet məqsədlərdən olduğu bəllidir.

Qeyd edilən tədbirlərlə yanaşı, ölkəmizin mühüm beynəlxalq təşkilatlarda sədrlikləri və üzvlüyü, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi mühüm platformalarda prioritetlərimizin irəlilədilməsi torpaqlarımızın işğaldan azad edilməsi üçün təməl bazanın yaradılmasına xidmət edib. Azərbaycanın 155 səs çoxluğu ilə 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi ölkəmizin haqq səsinin daha da geniş yayılmasına imkan verib. Həmçinin 2011-ci ildən üzvü olduğumuz Qoşulmama Hərəkatının 2019-cu ildən etibarən sədrliyini həyata keçirməyimiz, BMT-dən sonra ikinci ən böyük çoxtərəfli platforma olan Qoşulmama Hərəkatı çərçivəsində inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrlə əlaqələrimizin gücləndirilməsi Azərbaycanın haqlı mövqeyinin daha da möhkəmlənməsinə imkan yaradıb. Qoşulmama Hərəkatında beynəlxalq hüquq və normalar çərçivəsində ədalətin bərpası üçün atdığımız xoşniyyətli addımlar qarşılığını çox qısa zamanda alıb. 44 günlük Vətən müharibəsi və postmünaqişə dövründə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri arasında olan Qoşulmama Hərəkatı üzvləri ölkəmizə qarşı mənfur qətnamələrin qarşısının alınmasına kömək edib, çoxtərəfli platformalarda diplomatik uğurlarımızdan birinə çevrilib.

## Ədalətin bərqərar olması yolunda Azərbaycanın sərgilədiyi yanaşma

Azərbaycan tərəfi ədalətin bərpa olunması istiqamətində apardığı fəaliyyət ilə həmçinin Ermənistanın reallıqları anlayacağı, beynəlxalq hüququn norma və prinsiplərinə, həmçinin beynəlxalq təşkilatların qətnamə və qərarlarına uyğun olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğaldan azad edəcəyi ümidi ilə, 30 ilə yaxın danışıqlar prosesinə sadiq olduğunu nümayiş etdirib.

Azərbaycanın keçmiş münaqişənin həlli üzrə aparılan danışıqlar prosesində sərgilədiyi mövqe prinsipial xarakter daşımaqla, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, uzun illər ərzində davam edən proses çərçivəsində heç zaman dəyişməyib. Bu mövqe daim beynəlxalq hüququn dövlətlərin suverenliyi, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsi, qanunsuz işğal faktorunun aradan qaldırılması və öz evlərindən didərgin düşmüş insanların hüquqlarının bərpa edilməsi, onların evlərinə təhlükəsiz şəraitdə və ləyaqətlə geri dönüşünün təmin edilməsindən ibarət olub.

Nikol Paşinyan hökumətinin əvvəlki Ermənistan liderlərinin ritorikasından daha sərt şəkildə ölkəmizə qarşı təxribatlara yol verməsi şəraitində belə Azərbaycan tərəfi diplomatik müstəvidə Ermənistanın avantürasına qarşı öz təbliğatını artırmaqla cavab verib. Bütün bu dönəmdə Azərbaycan bir daha sübut edib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən atılmış təxribatçı addımların miqyası bu ölkənin məqsədi münaqişənin həlli deyil, yalnız Azərbaycan ərazilərini ilhaq etməkdir.

Ermənistan baş nazirinin hakimiyyətə gəldiyi günün səhəri Azərbaycanın o zaman işğalçı qüvvələrin nəzarətində olan Qarabağ bölgəsinə səfər edərək, Şuşa şəhərinin işğalını qeyd etməsi, oğlunu Qarabağ bölgəsinə göndərməklə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazilərində qanunsuz mövcudluğuna haqq qazandırması, 2019-cu ilin 5 avqust tarixində "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını səsləndirməsi münaqişənin siyasi yolla həlli formatına ciddi zərbə vurduğu və diplomatik müstəvidə Ermənistanın mövqeyini zəiflətdiyi bəlli idi. Bununla yanaşı, 23 iyul 2020-ci il tarixdə Tovuz təxribatından sonra erməni baş nazirin danışıqlar prosesində iştirakla bağlı 7 şərt irəli sürməsi, o cümlədən "qanunsuz rejimin danışıqlar prosesinin tamhüquqlu iştirakçısına çevrilməli olduğunu" iddia etməsi Azərbaycanın haqq işinin intensivləşməsinə yardım etdi.

Azərbaycan öz növbəsində, Ermənistanın bu təxribatlarını lazımi şəkildə cavablandırdı, hər bir təxribat bir çox halda dövlət rəhbərimiz başda olmaqla müvafiq səviyyələrdə ifşa olundu. Azərbaycan Respublikasının Prezidenti keçmiş münaqişə kontekstində səsləndirdiyi hər bir fikrin və mövqeyin zamanını, məkanını xüsusi dəqiqliklə seçərək onun doğru hədəflərə və geniş beynəlxalq auditoriyaya çatmasını təmin etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin 3 oktyabr tarixində Rusiya Prezidenti və dörd ölkə liderinin iştirakı ilə baş tutan "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında çıxışı zamanı N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" bəyanatına tutarlı faktlarla cavab verməsi Ermənistan tərəfinə böyük zərbə oldu. Bütün dünya mediasının diqqətində olduğu bir tədbirdə Prezident İlham Əliyevin erməni baş nazirinin bəyanatının yalan olduğunu vurğulayaraq məşhur - "Qarabağ Azərbaycandır və nida" - faktını vurğulaması zəfərin uzaqda olmadığının bəyanı idi.

Bununla yanaşı, 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində münaqişə ilə bağlı təşkil olunan panel müzakirəsində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev münaqişənin həm tarixi, həm də hüquqi aspektləri, eləcə də münaqişənin həlli prosesində Azərbaycanın sərgilədiyi beynəlxalq hüquqa əsaslanan mövqeyi barədə verdiyi dəqiq və dolğun məlumatla müzakirələrə qatılan baş nazir N.Paşinyanı çıxılmaz vəziyyətdə qoydu.

Qeyd edilən hər iki tədbirdə dövlət başçısı tərəfindən səsləndirilən çıxışlar, məhz beynəlxalq ictimaiyyətin diqqətinin bu məsələyə yönəldilməsi və keçmiş münaqişə kontekstində həqiqətlərin milyonların gözü önündə birbaşa çatdırılması Ermənistan təxribatlarının qəbuledilməzliyi barədə dünya ictimaiyyətinə xəbərdarlıq edilməsi məqsədini güdüb.

Dövlətimizin başçısının Ermənistanın təxribatlarının danışıqlar prosesinə zərbə olduğunu açıq şəkildə bildirməsi və Ermənistan rəhbərliyinin Azərbaycanı "yeni torpaqları işğal etməklə hədələməyə çalışdıqlarını" söyləməsi, "Azərbaycan xalqının səbrinin həddi var. Danışıqlar mahiyyəti üzrə aparılmalıdır. Əgər biz görsək ki, bu danışıqlar əhəmiyyətsizdir, onda buna uyğun şəkildə öz addımlarımızı da atacağıq və bəyanatlarımızı da verəcəyik" - deyən Prezident İlham Əliyevin bu təxribatların nəyə gətirib çıxara biləcəyini də açıq şəkildə səsləndirdiyi məlumdur.

Azərbaycan Respublikası Prezidenti 24 sentyabr 2020-ci il tarixdə BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın davam edən təxribatları ilə bağlı beynəlxalq ictimaiyyətə aydın şəkildə xəbərdarlıq etdi. Prezident çıxışının böyük hissəsini münaqişə və onun doğurduğu nəticələrə, habelə Ermənistanın hərbi-siyasi təxribatlarına həsr edərək, BMT-nin ali kürsüsündən dünya ictimaiyyətinə müraciət etdi: "Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğu regional sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmağa cəhd edir. Ermənistanın məqsədi işğalla bağlı hazırkı status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaqdır. Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. Onun qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilib. Bizim sülhə nail olmaq üçün yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır".

Beləliklə, Ermənistanın qeyri-adekvat addımları və təxribatları beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası çərçivəsində cavab tədbirlərinin görülməsini qaçılmaz etdi.

27 sentyabr 2020-ci il tarixdə Ermənistanın növbəti təxribatına cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatları başladı. 44 günlük Vətən müharibəsinin nəticəsində Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini (822, 853, 874 və 884), BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, NATO, GUAM, Avropa Şurası və digər beynəlxalq təşkilatların erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinin əsasında həllinə çağıran qərar və qətnamələrini həyata keçirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibə dövründə belə diplomatik səyləri davam etdirir, çıxışlarında həm beynəlxalq ictimaiyyəti dəqiq və dürüst şəkildə məlumatlandırır, həm də Ermənistan da daxil olmaqla, dünya ictimaiyyətinə konkret xəbərdarlıqlar göndərirdi. 44 günlük Vətən müharibəsində Azərbaycanın haqlı mövqeyini xarakterizə edən və cənab Prezidentin demək olar ki, bütün müraciətlərində qeyd olunan əsas məqamlardan biri məhz ölkəmizin beynəlxalq hüquq çərçivəsində və beynəlxalq tanınmış ərazilərində əməliyyatları həyata keçirməsi idi. "Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır... Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir... Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar, ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?!" - deyən dövlət başçısı, onilliklər ərzində Azərbaycan tərəfindən istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvilərdə səsləndirilən, danışıqlar prosesində ifadə edilən mövqeyimizi konkret şəkildə bəyan etmiş oldu.

Azərbaycanın işğaldan azad edilmiş hər bir rayonu, kəndi, qəsəbəsi barədə məlumatı xalqımız ilə bölüşən dövlət başçısı çıxışlarında azad edilmiş ərazilər, düşməndən əldə edilən qənimətlər barədə məlumat verməklə yanaşı, bu torpaqlardakı vəziyyət, Ermənistan tərəfindən illər ərzində aparılmış qanunsuz fəaliyyət və onun nəticələri, genişmiqyaslı dağıntılar, habelə Ermənistanın müharibə cinayətləri barədə konkret məlumatları təqdim edirdi.

Mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də o idi ki, Azərbaycan tərəfi hətta əməliyyatlar davam edən zaman belə münaqişənin qan tökmədən, itki vermədən həllinin tərəfdarı olduğunu bəyan edirdi. Prezident İlham Əliyev 44 günlük müharibə dövründə ilk gündən etibarən səsləndirdiyi çıxışlarında əməliyyatların dayandırılmasının mümkünlüyünü, lakin bunun üçün Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasının zəruri olduğunu bəyan edirdi. Bunun qarşılığında Ermənistan tərəfi nəinki bu çağırışlara cavab vermir, əksinə, əməliyyatlar zamanı humanitar atəşkəsə dair əldə olunmuş razılıqları hər dəfəsində kobud şəkildə pozurdu.

Beləliklə də, Azərbaycanın dövlət başçısının 44 günlük müharibə dövründə beynəlxalq ictimaiyyətə verdiyi əsas ismarışları o cümlədən Azərbaycanın mövqeyinin beynəlxalq hüquqa əsaslanması, əks-hücum əməliyyatının Azərbaycan ərazisində, özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə həyata keçirilməsi, habelə Ermənistanın təcavüzkar siyasətinin nəticələrinin, törətdiyi müharibə cinayətlərinin ifşa edilməsi bir tərəfdən həqiqətlərin geniş ictimaiyyətə çatdırılması, digər tərəfdən isə Azərbaycanın haqlı mövqeyinin siyasi-hüquqi əsaslarının daha da möhkəmləndirilməsi məqsədlərinə xidmət edirdi.

Bu dövr ərzində bir sıra dünya liderləri ilə aparılan telefon danışıqları, ölkəmizə edilən səfərlər çərçivəsində xarici nümayəndə heyətləri ilə keçirilən görüşlər, beynəlxalq tədbirlərdə iştirak, xarici ölkələrin aparıcı mətbuat nümayəndələrinə verilən çoxsaylı müsahibələr dövlət başçısının zəfər diplomatiyasının önəmli tərkib hissələrini təşkil edib.

## Böyük zəfər və müdrik xarici siyasətin nəticələri

Vətən müharibəsi qüdrətli Azərbaycan Ordusunun döyüş meydanında apardığı şanlı mübarizə ilə yanaşı, diplomatiya meydanında Azərbaycan Respublikasının Prezidentinin mübarizəsi, müdrik xarici siyasəti ilə xarakterizə olunur.

Onilliklər ərzində münaqişənin həlli ilə bağlı danışıqlar prosesində iştirak edən Azərbaycan eyni zamanda münaqişənin həllinin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl və qətiyyətli iş aparıb, beynəlxalq təşkilatların bu xüsusda qəbul etdiyi çoxsaylı qərar və qətnamələr diplomatik uğurumuz olub. Prezident İlham Əliyevin 20 oktyabr 2021-ci ildə xalqa ünvanladığı müraciətdə bu barədə söylədikləri bu tezisi aydın şəkildə ifadə edir: "...Azərbaycan vətəndaşları, o cümlədən köçkünlər hesab edirdilər ki, diplomatik uğurlar önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir. Mən isə həmişə onlara izah edirdim ki, bu, beynəlxalq hüquq çərçivəsində həll olunası bir məsələdir. Buna görə biz bütün aparıcı beynəlxalq təşkilatlarla işləməliyik ki, bu münaqişənin həlli üçün hüquqi bazanı genişləndirək. BMT Təhlükəsizlik Şurasının qətnamələri işləmirdi. Biz böyük səylər göstərdik, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamə qəbul etdi. Avropa İttifaqı ilə bizim aramızda paraflanmış sənəddə də sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Yəni budur bu münaqişənin həlli üçün əsas".

Prezident İlham Əliyevin milli maraqlara söykənməklə beynəlxalq hüquq çərçivəsində apardığı xarici siyasət hər zaman özündə ədalət və humanizm prinsiplərini ehtiva edib. Azərbaycan strateji səbir nümayiş etdirərək onilliklər ərzində ərazilərinin işğalına son verilməsi, beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsi, beynəlxalq hüququn təmin edilməsi üçün danışıqlar aparıb. Məhz bu aparılan danışıqlar, diplomatiya cəbhəsində gərgin proseslər Azərbaycanın hərb meydanında gücünü birə yüz artırıb.

Azərbaycan Respublikasının Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi böyük qələbə, o cümlədən 19-20 sentyabr 2023-cü il tarixdə antiterror tədbirləri çərçivəsində Qarabağ bölgəsi üzərində tam suverenliyimizin bərpa olunması Azərbaycan tarixinin şanlı səhifəsini təşkil etməklə yanaşı, bölgədə yeni reallıqlar yaratdığı məlumdur. İndi Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Əlbəttə, bu məsələdə beynəlxalq ictimaiyyətin də rolu əhəmiyyət kəsb edir. Ermənistanın revanşizm cəhdlərinin hər hansı şəkildə dəstəklənməməsi və bölgənin rifahı üçün sülhün alternativinin olmamasına dair çağırışların edilməsi olduqca vacibdir.

Qeyd edilənlərlə yanaşı, şanlı zəfərin təmin olunduğu bu tarixi dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək Azərbaycan həqiqətlərinin beynəlxalq aləm tərəfindən qəbul etdirilməsində davamlı və daha qətiyyətli iş aparılması əvvəlkindən daha böyük əhəmiyyət kəsb edir.

*Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinin bundan sonra da dünya müstəvisində qətiyyətli şəkildə müdafiə olunması və beynəlxalq sərhədlərimiz çərçivəsində ölkəmizin, xalqımızın inkişafına yönəlik səylərin davam etdirilməsi eyni dərəcədə zəruridir.*

*Əminik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqının birliyinə, Azərbaycan dövlətinin milli maraqlarına əsaslanan uğurlu xarici siyasəti xalqımıza yeni-yeni Zəfərlər bəxş edəcəkdir.*

**Ceyhun BAYRAMOV,**
***Azərbaycan Respublikasının xarici işlər naziri***



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# Qüdrətli lider, cəsur xalq və labüd qələbə



*Əvvəli 1-ci səh.*

Ölkəmizin beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu davamlı artır. Milli məsələlərdə yalnız bir amili - xalqının və dövlətinin milli maraqlarını əsas tutan Prezident İlham Əliyev beynəlxalq güclərə boyun əymədən, xarici təzyiqlər qarşısında müvazinətini itirmədən xalqımızı milli hədəflərə doğru inamla aparır. İlham Əliyevin uğurla hazırlayıb, dahi intellektlə reallaşdırdığı "Güclü Lider - Güclü Dövlət - Güclü Vətəndaş" formulu əsasında Azərbaycan və onun Prezidenti dünyada tam müstəqil aktorlar - simvollar kimi qəbul olunur.

İndi liderimiz və dövlətimiz kimi xalqımız da, vətəndaşımız da çox güclüdür, daha qürurludur, özünə tam güvənir. Bütün xarici təsirlər, təzyiqlər, antiazərbaycançı kampaniyalar İLHAM ƏLİYEV - XALQ həmrəyliyi, birliyi nəticəsində iflasa uğrayır. Müstəqilliyimizə qarşı hər hansı bir təhdid anındaca zərərsizləşdirilir.

İlham Əliyev fenomeni müstəqil Azərbaycan dövlətinin siyasi simasını müəyyən edir. Bu, Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə dünyada liderlər sırasına yüksəlməsi faktıdır. Ölkəmizin beynəlxalq aləmdə gündən-günə güclənən mövqeyidir. Azərbaycanın mövcud iqtisadi potensialının insan kapitalına çevrilməsi istiqamətində atılan böyük addımlardır.

Nəyahət, İlham Əliyev missiyası - torpaqlarımızın 30 illik işğaldan azad olunması, ikiəsrlik münaqişəyə son qoyulması, xalqımızın Zəfər, Şuşa qürurunu yaşamasıdır!

## Klayn formulu Azərbaycan reallığında

İlham Əliyevin 20 illik fəaliyyətində indi xalqımız üçün əsas göstərici Böyük Zəfər və onun yaratdığı reallıqlardır. Uzun onilliklər azərbaycanlıların ağır faciələrinin qara rəmzi olan müharibə məhz Qüdrətli Komandanımızın yüksək hərbi dühası nəticəsində artıq qürur mənbəyinə çevrildi. Məğlubiyyət savaşından Zəfər müharibəsinə keçid İlham Əliyev missiyasının əsas leytmotividir.

"Müharibə haqqında" traktatın müəllifi Karl fon Klauzevits yazırdı ki, "sərkərdə yekun döyüşə elə vəziyyət və qüvvələr balansında nail olmağa çalışmalıdır ki, bu savaş ona qəti qələbəni təmin etsin". Yuli Sezar isə deyirdi ki, sərkərdə güc ilə olduğu qədər ağlı ilə də qalib gəlməyi bacarmalıdır.

Tarixin çoxəsrlik hərbi-siyasi proseslərində təsdiqini tapmış bu ifadələr müasir dövrdə Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun hərbi strategiyası barədə də dolğun təsəvvür yaradır. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və Konstitusiya quruluşunun bərpasını 44 gündə reallaşdıran, 23 saat ərzində isə tam yekunlaşdıran Prezident İlham Əliyevin Zəfər strategiyası həm də "müharibə əvvəl komandanın beynində, sonra isə döyüş meydanında qazanılır" məntiqini tam əsasda doğruldur.

Taleyin Azərbaycan xalqına İlham Əliyev kimi qüdrətli sərkərdə, dahi strateji düşüncə sahibi və qalib lider bəxş etməsi böyük şansdır. Məhz onun mahir rəhbərliyi altında Azərbaycan 17 il ərzində məqsədyönlü şəkildə hədəfə - Vətənin işğaldan azad edilməsinə doğru inamla irəlilədi. Bu prosesi, ümumilikdə isə İlham Əliyev missiyasının əsas dövlətçilik istiqamətlərini məqalənin girişində istinad etdiyim Rey Klayn formulu kontekstində izah və təhlil etmək daha effektiv nəticə verər.

Karib böhranı zamanı Mərkəzi Kəşfiyyat İdarəsinin aparıcı təhlilçisi olan Rey Klaynın müəllifi olduğu və xarici analitik mərkəzlər tərəfindən etibarlı mənbə sayılan bu formula əsasən ölkənin qüdrəti onun ərazisi/əhalisi, iqtisadi və hərbi imkanlarının cəminin dövlət strategiyasının və milli iradəsinin cəminə vurulan nəticəsinə bərabərdir.

Riyazi tənliyə müraciət etməyimizin əsas səbəbi budur ki, Azərbaycanın və onun Müzəffər Liderinin qələbəsinin mahiyyəti və təfsilatı qələmə alınsaydı, nəzəri araşdırma materialları Azərbaycan Milli Kitabxanasında ən azı bütöv kitab rəfi divarını tutacaqdı. Riyazi formul isə bizə İlham Əliyevin yorulmaz, yüksək dəqiqliklə hesablanmış, məqsədyönlü addımlarını mətnin keyfiyyətini qurban vermədən yığcam şəkildə təsvir etməyə imkan verəcək. Azərbaycanın qüdrətini müəyyən etmək üçün mövcud çox saylı formullar içərisində məhz bu düstura üstünlük verməyimiz bununla əlaqədardır ki, Klayn tənliyində gücün kəmiyyət və keyfiyyət komponentləri ayrı-ayrılıqda qiymətləndirilib, yekunda bir-birinə vurulur. Əgər ölkənin dövlət strategiyası uğursuz, milli iradəsi isə aşağıdırsa, coğrafi, demoqrafik, iqtisadi və hərbi üstünlük ona yardımçı olmayacaq: heç bir qrossmeyster tək bir şahın köməyi ilə rəqibi məğlub edə bilməz.

Klayn formulunun prinsiplərinə görə təsnifatlaşdırsaq, Azərbaycan Prezidenti artıq ərazi bütövlüyü bərpa olunan bir ölkənin, bölgənin ən böyük əhalisinə malik xalqın, regionun şəriksiz iqtisadi gücünün mahir idarəçisidir. Böyük zəfərin təminatçısıdır və vətəndaşlarının alternativsiz etimad ünvanı olaraq milli iradənin rəmzidir. Yəni bütün kateqoriyalarda ən yüksək göstəricilərə sahibdir və onların hasili riyazi mənada maksimum rəqəmdir, siyasi kontekstdə isə qlobal liderliyin mükəmməl nümunəsidir.

Əslində, müasir Azərbaycan reallığında bu tənliyin bütün əmsallarının - göstəricilərinin yetərincə yüksək rəqəmlərlə əks olunduğunu elə cənab Prezidentin fəaliyyətinin iki əsas nəticəsində görə bilərik. İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının və tarixin ən möhtəşəm hərbi zəfərinin müəllifidir.

Bu nailiyyətlər yalnız bir tarixi mərhələ üçün, yəni bu dövr üçün uğur simvolu deyil. Əksinə, ikiüçəsrlik problemlərin həllinin və qarşıdakı əsrlərdə davamlı inkişafının möhkəm təməllərinin real təzahürüdür. Yəni Prezident həm tarixi problemləri aradan qaldırır, həm də uzunəsrlik perspektiv inkişafın və təhlükəsizliyin əsasını qoyur. Özü də onun bu fəaliyyəti bütün riyazi, hərbi, siyasi, iqtisadi tənlik-formullarda uğur nümunəsi kimi diqqəti cəlb edir.

## Zəfər necə qazanıldı?

Faktlara məhz müqayisəli təhlillər aspektindən nəzər salaq. Müstəqilliyin ilk illəri Qarabağda hərbi əməliyyatlarla yanaşı, Azərbaycanın şimal və cənub bölgələrində separatçı qəsdlərlə də müşayiət olunurdu. Gənc respublikanın çiyninə ağır yük düşsə də, tale üzünü Azərbaycan xalqından döndərmədi. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev Qurtuluş missiyası ilə ölkəni dağılmaqdan xilas etdi, dövlətçiliyin bütün atributlarını yaratdı, onları işlək vəziyyətə gətirdi, həmçinin düzgün sosial rifah siyasəti ilə demoqrafik kursun inkişafına əsaslı təkan verdi. Başqa sözlə, itirilmiş ərazilərə baxmayaraq, Azərbaycan yenə də coğrafi və demoqrafik göstəricilər üzrə Ermənistandan öndə idi. Bu üstünlük İlham Əliyevin prezidentliyi dövründə artıq strateji hədəfə çatdı: ölkə əhalisi 10 milyonu ötdü. Bununla yanaşı, Azərbaycanın müxtəlif regionlarını bir-biri ilə birləşdirən və Silahlı Qüvvələrin yüksək hərəkətliliyini təmin edən geniş avtomobil və dəmir yolları şəbəkələri quruldu, ölkəni bütün dünya ilə birləşdirən dəniz və hava limanlarının modernləşdirilməsi həyata keçirildi. Azərbaycan qlobal nəqliyyat-logistika habının mühüm halqasına çevrildi. Azərbaycan kosmos ölkəsi oldu, fəzaya "Azerspace-1" və "Azersky" peykləri çıxarıldı. Xüsusi qeyd edək ki, 1,5 metr yüksək ayırdetmə qabiliyyətinə malik "Azersky" peyki Fransa ərazisindən on dəfə böyük 6 milyon km2 diametrli ərazini müşahidə edə bilirdi. Yeri gəlmişkən, bu günlərdə Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresində elan olundu ki, növbəti 2 süni peyki Azərbaycan öz ərazisində istehsal edəcək.

2016-cı ildə Davos Dünya İqtisadi Forumunun rəsmi saytı Prezident İlham Əliyevin "Azərbaycan iqtisadiyyatının gələcəyi" adlı məqaləsini dərc etdi. Məqaləyə əsasən, son 10 ildə Azərbaycan iqtisadiyyatı 300 faiz artmış, yoxsulluq və işsizlik isə kəskin şəkildə azalmış, 5 faiz təşkil etmişdir. Dördgünlük Aprel döyüşləri başlamazdan bir il əvvəl Dünya İqtisadi Forumu öz hesabatında Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətinə görə dünyada 40-cı, MDB məkanında isə birinci yerə çıxartmışdır.

Digər bir nailiyyət isə ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm faktora çevrilməsi idi. 2016-cı ildə Azərbaycan 4 layihədən ibarət "Cənub qaz dəhlizi" konsepsiyasını dünyaya təqdim etdi: 1. "Şahdəniz-2"nin istismarı, 2. Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz Qaz Kəmərinin genişləndirilməsi, 3. Türkiyə-Gürcüstan sərhədindən Türkiyə-Yunanıstan sərhədinə qədər uzanan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP), 4. Yunanıstandan Albaniyaya və Adriatik dənizinin dibi ilə İtaliya sahillərinə qədər uzanan Trans-Adriatik Boru Kəməri (TAP). 10-dan artıq Avropa ölkəsi "Cənub qaz dəhlizi" layihəsində iştirak, yaxud ona qoşulmaq arzusunu bildirdi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi layihələrlə yanaşı, "Cənub qaz dəhlizi" Azərbaycanı Qərbin etibarlı enerji və logistika tərəfdaşına çevirdi. Bu layihələr ölkəni Ali Baş Komandan tərəfindən Silahlı Qüvvələrin gücləndirilməsinə uğurla yatırılmış böyük vəsaitlərlə və Azərbaycanı qərəzli siyasi təzyiqlərdən qorunmasına hesablanan lazımi diplomatik dəstəklə təmin etdi. Təsadüfi deyildi ki, N.Paşinyan 2020-ci il 10 noyabr tarixli kapitulyasiya aktı imzalayandan sonra siyasi rəqiblərinin "niyə Azərbaycanın neftayırma zavodlarına və boru kəmərlərinə "İsgəndər"lərlə zərbə endirilmədi" "ittihamlar"ına cavab olaraq bildirmişdi ki, belə addım Qərbi qəzəbləndirə və onu Ermənistana qarşı səfərbər edə bilərdi.

## İqtisadi gücdən hərbi qüdrətə doğru

Vətən müharibəsi ərəfəsində Dünya Bankı Azərbaycanı ən islahatçı 20 ölkə siyahısına daxil etmişdir. Azərbaycan TANAP layihəsini vaxtından əvvəl uğurla bitirmiş, TAP layihəsinin icra səviyyəsini isə yekunlaşdırmaq üzrə idi. Vurğulayaq ki, bu artım pandemiyanın aktiv mərhələsinə təsadüf edirdi. Azərbaycanın xarici ticarət dövriyyəsinin müsbət saldosu 6 milyard dollar idi, ölkənin valyuta ehtiyatları isə 51 milyard dollara çatmışdı. Dahi strateq İlham Əliyev vətən torpaqlarının azad edilməsinə kompleks şəkildə yanaşırdı.

Müharibə ərəfəsində Azərbaycan və Ermənistanın iqtisadi göstəriciləri müqayisəolunmaz idi. Prezidentin qazandığı iqtisadi uğurlar istənilən döyüş tapşırığını yerinə yetirə bilən güclü ordunun əsası oldu.

Azərbaycanın ordu quruculuğundakı uğurları diqqətsiz qalmadı. 2015-ci ildə "Global Firepower Index" Azərbaycanı dünyanın ən güclü 126 ölkəsi sırasında 64-cü yerdə qərarlaşdırdı. Beləliklə, Aprel döyüşlərindən bir il əvvəl Azərbaycan rəqib Ermənistanı hərbi güc baxımından 10 pillə qabaqlayırdı. Hərbi üstünlük və Ali Baş Komandanın mahir rəhbərliyi sayəsində Azərbaycan dördgünlük döyüşlər zamanı uğurlu əks-hücum əməliyyatı keçirərək hərbi əhəmiyyətli mühüm strateji məntəqələri azad etdi. İki il sonra Azərbaycan Naxçıvanda uğurlu Günnüt əməliyyatı keçirərək 10 min hektardan çox ərazini azad edib, strateji yüksəkliklərə yiyələnərək Ermənistanın o bölgədəki strateji kommunikasiyalarına nəzarət əldə etdi. Bu əməliyyatları şahmat terminologiyası ilə ifadə etsək, "Mittelşpil" (orta oyun) - şahmat lövhəsinin mərkəzi uğrunda, strateji üstünlüyə sahib olmaq naminə mübarizə idi. Dörd günlük döyüşlər və Naxçıvan əməliyyatı Böyük Zəfərin ilk təməli oldu.

Vətən müharibəsindən bir il əvvəl N.Paşinyan həyatının və dövlətinin ən böyük səhvini edib, "Qarabağ Ermənistandır və nöqtə" dedi. İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida" bəyanatı isə yalnız siyasi ritorika daşımırdı, bu, artıq proseslərin hərbi müstəviyə keçməsinin və labüd qələbənin anonsu idi.

2020-ci ilin 27 sentyabrınadək Azərbaycanın hərbi üstünlüyü birmənalı şəkildə etiraf olunurdu. Zəka fakt qarşısında acizdir - sözsüz ki, əgər bu zəka Ermənistan rəhbərliyinə aid deyilsə: Ermənistan ordusunun "məğlubedilməzlik mifi"ni yaradan avantürist rəhbərlik, üstəlik, bu saxta mifə inanmağa başlamışdı. Müharibə başa çatdıqdan sonra yalnız üçüncü gün Ermənistanın müdafiə naziri D.Tonoyan etiraf etdi: "Biz nəhəng bir qüvvə ilə - fövqəl silahlı Azərbaycan Ordusu ilə qarşılaşmışdıq. Soruşa bilərsiz ki, bəs biz niyə silahlanmamışdıq? Cavab verirəm: biz də silahlanmışdıq, amma kəmiyyət və resurs baxımından imkanlar müqayisəolunmaz dərəcədə idi".

Bunun üçün iki ölkənin Milli Təhlükəsizlik Strategiyalarını qarşılıqlı surətdə müqayisə etmək kifayətdir. Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasına əsasən, ölkənin əsas milli maraqları dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının, xalqın birliyinin qorunub saxlanılmasının, demokratiyanın, iqtisadi rifahın yüksəldilməsinin və Azərbaycançılıq ideologiyasının təminatıdır. Bakı İrəvandan fərqli olaraq etnik-mədəni təmizləmə aparmayıb, R.Koçaryandan fərqli olaraq "ermənilərlə azərbaycanlıların genetik uyğunsuzluğundan" danışmayıb, əksinə, hələ 2007-ci ildə hazırlanmış Milli Təhlükəsizlik Konsepsiyasında Azərbaycanın yurisdiksiyası altında iki icmanın dinc birgəyaşayışının mümkünlüyünü elan etmişdi. Beləliklə, İlham Əliyevin daxili və xarici siyasət sahəsində məqsədyönlü, uzaqgörən addımları Ermənistanı diplomatiya arenasında tərk-silah etmiş, Azərbaycan diplomat və ekspertlərinə isə fərqli platformalarda ermənilərin ittihamlarını puç etmək üçün sarsılmaz arqumentlər vermişdir.

## "Dəmir yumruğ"un reallığı

Bu kontekstdə elə son həftələrin prosesinə nəzər salaq. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və Konstitusiya quruluşunun tam bərqərarı prosesi Qarabağın erməni sakinlərinin qarşısında son seçim zərurəti yaradır. Ya Azərbaycan ərazisini tərk edirlər, yaxud da Azərbaycan vətəndaşlığını qəbul etməyə razılıq verirlər. Prezident İlham Əliyev onlara tam təminat verir ki, Azərbaycan mərkəzi hakimiyyətinin birbaşa yurisdiksiyasına keçməklə təhlükəsiz həyat, iş, çörək, firavanlıq əldə edə bilərlər. Erməni sakinlər anlamalıdırlar ki, avantürist rəhbərləri və Ermənistana bağlılıq onlara ancaq fəlakət, problem gətirir. Dövlət başçımızın reinteqrasiya ilə bağlı çağırışı onların xilası olacaq. Antiterror tədbirlərindən cəmi iki gün sonra Azərbaycanın humanitar yük karvanlarının, zəruri qida və yanacaq vasitələrinin erməni sakinlərinə çatdırılması və bu prosesin davam etməsi Prezidentimizin bu məsələdə tutduğu prinsipial mövqeyi aydın göstərir. Qarabağın erməni sakinlərinin nicatı yalnız Azərbaycanda və Prezident İlham Əliyevdədir.

Realizmin banisi H.Morgentaunun uğurlu diplomatiya nəzəriyyəsinin ikinci qaydasına əsasən, "xarici siyasətin məqsədləri milli maraqlar kontekstində nəzərdən keçirilib, adekvat gücə əsaslanmalıdır". Başqa sözlə, dövlət milli maraqlarına və ya milli təhlükəsizliyinə zidd məqsədlər müəyyənləşdirməməli, xarici siyasət hədəflərini ölkəsinin real və potensial imkanlarına uyğun seçməlidir. İxtisasca diplomat olan, fəaliyyəti müddətində isə qlobal diplomatiyanın ən nüfuzlu üzvlərindən birinə çevrilən İlham Əliyev bu şərtləri, tələbləri şübhəsiz ki, hər kəsdən daha yaxşı bilirdi. Bu səbəbdən də Azərbaycan diplomatiyasının qarşısına yalnız milli maraq və milli gücə uyğun hədəflər qoyuldu. Lakin istisnasız olaraq bütün erməni liderləri Morgentaunun uğurlu diplomatiya qaydalarının hamısını təsadüfən və ya bilərəkdən pozurdu.

Ermənistanın milli təhlükəsizlik strategiyasında dövlətin əsas məqsədləri siyahısında - "Artsaxın öz müqəddəratını təyinetmə hüququnun heç bir məhdudiyyət olmadan beynəlxalq səviyyədə tanınması" və "erməni soyqırımının beynəlxalq səviyyədə tanınması" kimi hədəflər var idi. Ermənistan dövlətçiliyinin əsasında duran iki əsas sənəd - konstitusiyası və İstiqlaliyyət Bəyannaməsi Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarını irəli sürürdü. Destruktiv siyasət sayəsində Ermənistan iki ən böyük sərhədinin bağlanmasına nail olmaqla yanaşı, iqtisadi, siyasi və hərbi subyektivliyini itirərək böyük dövlətlərin regiondakı forpostuna çevrilmişdir. Ermənistan iqtisadiyyatının bütün mühüm sahələri bu və ya digər dərəcədə xarici dövlətlərə məxsusdur.

Elə erməni rəhbərliyi, ictimaiyyəti də bilir və açıq şəkildə etiraf edir ki, bundan sonra sərhəd xəttində hansısa savaş avantürasına başlasalar, nəticədə İrəvanı tərk etmək məcburiyyətində qalacaqlar. Bu, təhdid deyil, "dəmir yumruğ"un reallığı, Prezident İlham Əliyevin qətiyyətidir!

## Xilaskar Komandan indi Qurucu Liderdir

Vətən müharibəsindən sonra regionda formalaşmış yeni geosiyasi reallıq beynəlxalq miqyasda qəbul olunur, ölkəmizin sivil və bərabərhüquqlu əməkdaşlıq təşəbbüsləri dəstək alır. Ötən üç ildə Azərbaycan Ermənistan üzərində təkcə hərbi-siyasi, diplomatik deyil, informasiya üstünlüyünü də təmin edib. Bu gün sülh gündəliyini birmənalı olaraq Azərbaycan dövləti və onun Prezidenti müəyyənləşdirir.

Ötən iki əsrə nəzər yetirdikdə, qazanılan Zəfərin əzəmətini, tariximizdə nə dərəcədə önəmli proses olduğunu daha aydın şəkildə görmək mümkündür. Prezident İlham Əliyev müdrik sərkərdə, hərbi strateq olaraq xalqımızı həsrətində olduğu Qələbəyə addım-addım yaxınlaşdırdı. Milli maraqları hər şeydən üstün tutması, hadisələrin inkişaf axarını öncədən müəyyənləşdirə bilməsi, cəsarətli qərarlar qəbul etməsi Müzəffər Ali Baş Komandana Qarabağ yarasını əbədi olaraq sağaltmağa imkan verdi. Tarixi Zəfərin kökündə duran başlıca səbəb xalqımızın vahid amal uğrunda "dəmir yumruq" kimi birləşməsi, öz Liderinə sonsuz inamı, onun qərarlarını tərəddüdsüz dəstəkləməsi oldu.

Unutmayaq ki, dünyanı təhdid edən etnik separatizm və terrorçuluq elementlərinə qarşı qlobal dəstək olmadan yalnız öz Silahlı Qüvvələri ilə uğurlu nəticə əldə etmək nümunəsi bu əsrdə ancaq Azərbaycana, onun Müzəffər Ali Baş Komandanına nəsib olub.

Prezident İlham Əliyevin "dəmir yumruq" əməliyyatı bir dövlətin kənar yardımlar olmadan məhz öz gücü ilə ərazi bütövlüyünü təmin etməsi baxımından dünya hərb tarixində az rastlanan, son onilliklərdə isə ümumiyyətlə, təsadüf edilməyən bir hadisədir. Uzun onilliklər boyu dünyaya sığmayan güclü dünya erməniliyi şəbəkəsini indi Prezident İlham Əliyev İrəvanda üç yüz insanın etiraz keçirtdiyi kiçik küçəyə - dalanədək küncə sıxışdırıb.

İki əsrdir ermənilərin həyata keçirdikləri terrorçu-separatçı avantüranı Müzəffər Ali Baş Komandan 44 gündə məhv etdi, 23 saat ərzində isə tarixdən birdəfəlik sildi. Digər ölkələrdə də, - qonşu Gürcüstan da daxil, - mütəmadi baş qaldıran erməni separatizmi meyilləri Qarabağda başlarının əzilməsi nəticəsində böyük zərbə aldı və susduruldu. Bu zəfərin əsas mənəvi-psixoloji dəyəri isə əsrlərboyu üzləşdiyimiz soyqırımlarının, 105 il öncəki Bakı qətliamından Xocalı faciəsinədək bütün cinayətlərin qisasının Müzəffər Ali Baş Komandanımız və onun igid əsgər-zabitləri tərəfindən tam alınmasıdır. Qisasımız qiyamətə qalmadı, döyüş meydanında alındı!

Artıq geriyə yox, gələcəyə baxırıq. 30 ildən çox müddətdə Vətən həsrəti ilə yaşayan yüz minlərlə insanın ümidsizliyinə son qoyan Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərin ən böyük arzusunu, doğma yurdlarına qayıtmaq məqsədini inamla gerçəkləşdirir. Xilaskar Komandan indi Qurucu Liderdir. O, hörmətli Mehriban xanım Əliyeva ilə birlikdə Qarabağı və Şərqi Zəngəzuru kənd-kənd, məhəllə-məhəllə yenidən qurur. Mehriban xanımın tövsiyələri, sosialyönümlü təşəbbüsləri ilə bu bölgələr dünyanın ən müasir, ən zövqlü, ən komfort, ən "smart" səviyyəsinə uyğun tikilir. İşğaldan azad edilmiş məntəqələri Prezident və Mehriban xanım Əliyeva müasir şəhərçiliyin ən yeni qlobal trendləri əsasında - "ağıllı", "yaşıl", "insanyönümlü" konseptində formalaşdırırlar. Bu ərazilərdə başlamış genişmiqyaslı bərpa və yenidənqurma işləri, Böyük qayıdış prosesinə start verilməsi ölkəmizin gücünü, qüdrətini göstərir. Qarabağ və Şərqi Zəngəzur çox tezliklə möhtərəm Prezidentimizin müəllifi olduğu növbəti möcüzə - reallaşan möcüzə kimi tanınacaq.

*Toxunduğumuz faktlara, məqamlara, proseslərə əsasən, yeganə mümkün nəticəyə gəlmək olar: Azərbaycanın Vətən müharibəsində qələbəsi labüd idi! Və bu zərurəti strateji və taktiki düşüncə dühası olan İlham Əliyevin qüdrətli liderliyi təmin etmişdir. Bəli, Azərbaycan lap əvvəldən gücün kəmiyyət göstəricilərində üstün idi və bu üstünlük Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevin sayəsində davamlı olaraq artırılmışdı. Amma lap əvvəldə bildirdiyimiz kimi: əgər ölkənin dövlət strategiyası uğursuz, milli iradəsi isə aşağıdırsa, heç bir coğrafi, demoqrafik, iqtisadi və hərbi üstünlük bunu əvəzləyə bilməz.*

*Yaşasın adını Azərbaycan tarixinə qızıl hərflərlə həkk etmiş, Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyev və onun timsalında bütöv Azərbaycan xalqı, Azərbaycan Ordusu!*

**Eldar ƏZİZOV,**
***Bakı Şəhər İcra Hakimiyyətinin başçısı,***
***YAP İdarə Heyətinin üzvü***

# Avrasiyanın yeni "yaşıl enerji" dəhlizi



## İlham Əliyevin Gürcüstan səfərində yeni layihənin əsas istiqamətləri müəyyənləşdirildi

Mehriban qonşuluq münasibətləri və sadiq dostluq əlaqələri Azərbaycanla Gürcüstanın strateji tərəfdaşlığını getdikcə daha da gücləndirir. Çünki əməkdaşlığın davamlı inkişafını şərtləndirən mühüm amillər mövcuddur.

Bunu gücləndirən isə ölkə liderlərinin ənənəvi görüşləri, iki dost arasında imzalanan mühüm sənədlər, qarşılıqlı səfərlərdir. Bütün bunlar ölkələrimizin bir-birinə daha yaxın olması və xalqlarımızın daha sıx dostluq etməsinə xidmət edir.

Azərbaycanla Gürcüstanı həm də tarixi köklər birləşdirir və bu dostluğun çox qədim tarixi var. İki ölkə təkcə qonşu və dost deyil, həm də mühüm strateji tərəfdaşdır.

### İlham Əliyevin Gürcüstana 11-ci səfəri

Prezident İlham Əliyevin Gürcüstana işgüzar səfəri iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 31-ci ildönümünə təsadüf etdi. Bu səfər qonşu və dost ölkələr arasındakı münasibətlərin inkişafına müsbət impuls verdi. Bu səfər İlham Əliyevin Gürcüstana sayca 11-ci səfəri oldu.

Bundan əvvəl ötən il oktyabrın 24-də dövlət başçısı Gürcüstanda (Mçxetada) işgüzar səfərdə olub. Eyni zamanda bu il aprelin 7-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ölkəmizə (Qəbələyə) işgüzar səfər edib. Bu iki səfər Azərbaycan Prezidentinin və Gürcüstan Baş nazirinin görüşlərinin müntəzəmliyini artırıb, səfərlərin paytaxtlara deyil, bölgələrə həyata keçirilməsi kimi yeni bir ənənə yaradıb.

Ümumiyyətlə, iki ölkəni mehriban qonşuluq və tarixi dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq əlaqələri birləşdirir. 1996-cı il martın 8-də imzalanan "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə" isə ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoyub.

İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də qurulub. 1995-ci ilin fevralında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin martında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib.

Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRACEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib.

Bu gün isə Azərbaycan və Gürcüstan strateji tərəfdaşlıq mərhələsində geridə qoyaraq müttəfiqlik səviyyəsinə yüksəliblər. Azərbaycan-Gürcüstan münasibətləri faktiki olaraq tərəflərin ortaq strateji maraqlarına söykənir. İldən-ilə möhkəmlənən bu əlaqələrin daha da inkişaf etməsi üçün böyük layihələr həyata keçirilir. İki dövlət arasındakı əlaqələr daim yüksələn xətt üzrə inkişaf edir.

### 31 illik uğurlu diplomatik münasibətlər, imzalanan 125-dən çox sənəd

Dövlətlərarası əlaqələrimizin zəngin tarixi var. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. 2022-ci ildə münasibətlərimizin 30-cu ildönümü qeyd olunub. Qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Gürcüstan əlaqələri ötən illər ərzində dinamik inkişaf edib, ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb.

Ali və yüksək səviyyədə çoxsaylı qarşılıqlı səfərlər həyata keçirilib, indiyədək ölkələrimiz arasında 125-dən çox sənəd imzalanıb. Həmçinin 2009-cu ildə Azərbaycanın Gürcüstanın Batumi şəhərində baş konsulluğu, 2013-cü ildən etibarən isə Gəncə şəhərində Gürcüstanın baş konsulluğu açılıb.

Ölkələrimiz arasında parlamentlər səviyyəsində də fəal əməkdaşlıq mövcuddur. Hər iki ölkənin qanunverici orqanlarında birgə işçi qrupları fəaliyyət göstərir.

Azərbaycan ilə Gürcüstan arasında beynəlxalq təşkilatlar çərçivəsində də qarşılıqlı dəstək göstərmək təcrübəsi var. BMT Baş Assambleyasının 2020-ci (3 sentyabr), 2021-ci (17 iyun) və 2022-ci ildə (8 iyun) keçirilmiş sessiyalarında "Abxaziya (Gürcüstan) və Cənubi Osetiyadan (Gürcüstan) məcburi köçkün və qaçqınların vəziyyəti barədə" qətnamələrə dair səsvermə zamanı Azərbaycan sözügedən sənədin lehinə səs verib.

### 3,4 milyard dollarlıq investisiya

İki dost ölkə arasındakı iqtisadi əməkdaşlıq getdikcə güclənir. Belə ki, 2022-ci ildə Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsi 771 milyon dollar təşkil edib, ikitərəfli ticarətin saldosu isə müsbət 500 milyon dollar olub.

Bu il yanvar-avqust aylarında ikitərəfli ticarət dövriyyəsi 612,87 milyon dolları ötüb, ikitərəfli ticarətin saldosu isə müsbət 444 milyon dollar təşkil edib. Azərbaycanda 815 Gürcüstan investisiyalı kommersiya qurumu qeydiyyatdadır, onlardan 533-nün fəaliyyəti aktivdir.

Ümumilikdə Gürcüstandan Azərbaycana 279 milyon, Azərbaycandan Gürcüstana isə 3,4 milyard dollar məbləğində investisiya qoyulub.

İki ölkənin tarixi İpək yolu üzərində yerləşməsi və birgə irimiqyaslı enerji, nəqliyyat layihələrinin icra edilməsi regiondan keçən yük axınının həcmini dəfələrlə artırıb. Ölkələrimiz arasında uğurlu regional əməkdaşlıq münasibətləri çərçivəsində irimiqyaslı qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin (Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu və s.) reallaşdırılması bölgədə sülhə və sabitliyə xidmət edir.

### Orta dəhlizin güclənməsinə xidmət edəcək layihə

Bu gün isə iki strateji tərəfdaş yeni reallıqlara uyğun müasir layihələr üzərində çalışır. Bu barədə liderlərin mətbuata bəyanatında İlham Əliyev ətraflı məlumat verərək dedi ki, gələcək planlar üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik var.

Azərbaycan böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilər: "Bu gün biz Anakliya limanının inşası ilə bağlı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində Kulevi limanı var, o limanın genişləndirilməsi, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirəcək. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da, əlbəttə, Orta dəhlizin güclənməsinə xidmət göstərəcək".

Energetika sahəsində ənənəvi sahələrdən başqa bu gün iki dost ölkəni birləşdirəcək "Yaşıl enerji dəhlizi" layihəsi üzərində də iş gedir. Yaxın aylarda bu layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Bundan sonra konkret işlərə start veriləcək. Bu layihəyə böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "yaşıl enerji" dəhlizi, enerji kabeli inşa edilərək həm iki ölkənin, həm də tərəfdaş dövlətlərin enerji təhlükəsizliyini gücləndirəcək.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması bu imkanları daha da genişləndirib. Bununla Azərbaycan və Gürcüstan Avropaya "yaşıl enerji" körpüsü salmağa başlayır. 2027-ci ilədək istehsal olunacaq illik 3 qiqavat külək və 1 qiqavat günəş enerjisinin 80 faizi ixrac ediləcək. Bütövlükdə, hər iki ölkənin iqtisadiyyatın çox fərqli sahələrində əməkdaşlığı dərinləşməkdədir. Bu, Qafqazda dayanıqlı sülhün əldə edilməsi baxımından da vacib şərtlərdəndir.

Bir sözlə, bu gün Gürcüstanın və Azərbaycanın birlikdə və digər qonşu ölkələrlə birgə icra etdiyi layihələr təkcə Cənubi Qafqaz regionu üçün deyil, həm də Avrasiya üçün böyük məna daşıyır: "Bizdə həm güclü siyasi iradə var, artıq yaradılmış güclü infrastruktur var. Ən əsas amil isə Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığıdır".

### İlham Əliyevdən Ermənistana daha bir mühüm təklif

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili də bunu təsdiq edərək bildirdi ki, Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. İki ölkə arasında ənənəvi dostluq davam edir və İlham Əliyev bu işə çox böyük töhfələr verir. Bu dostluğun, qardaşlığın möhkəmləndirilməsində Azərbaycan Prezidentinin böyük xidmətləri var.

Səfər çərçivəsində Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsi də müzakirə mövzusu oldu. İlham Əliyev vurğuladı ki, Azərbaycan Qarabağ münaqişəsi başa çatandan sonra Ermənistanla sülh müqaviləsini imzalamağa hazır olduğunu bəyan edib. Çünki ölkəmiz regionda sülhün, təhlükəsizliyin təmin olunmasını istəyir.

Prezident dedi ki, üç il bundan əvvəl İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, keçən ay isə 23 saatlıq antiterror tədbirləri ilə bütün ölkə üzrə suverenlik təmin olunub. İndi Ermənistanla imzalanacaq sülh müqaviləsi üzərində fəal iş aparılır. Əgər buna nail olunsa, Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq. Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər. Bu da bir çox sahə üzrə əməkdaşlıqda ölkələrə uğur qazandıra bilər: "Nəqliyyat, enerji təhlükəsizliyi, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, bütün bunlar mümkündür. Sadəcə olaraq biz bundan məhrum idik, ona görə ki, Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında idi və təbii ki, bu vəziyyət imkan vermirdi ki, normallaşmaya doğru addımlar atılsın. İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar".

Hər zaman olduğu kimi, İlham Əliyev yenə də Ermənistana düşdüyü mövcud ağır iqtisadi böhrandan qurtuluş yolu göstərdi. Bu, Azərbaycan Prezidentinin humanist siyasətinin növbəti göstəricisidir.

Qeyd edək ki, ötən həftə Ermənistana növbəti zərbə də dəydi. Belə ki, Zəngəzur dəhlizi istiqamətində aparılan danışıqlarda öhdəliyini yerinə yetirmədiyi üçün Azərbaycanı alternativ yollara əl atmağa məcbur edən rəsmi İrəvan ötən həftə Azərbaycanla İran arasında imzalanan Anlaşma Memorandumu ilə çox mühüm şansını əldən vermiş oldu. İndi isə İlham Əliyev bir daha Hayastana yeni əməkdaşlıq təklif edir. Bu isə yalnız Azərbaycanın şərtləri əsasında imzalanacaq sülh müqaviləsindən keçir. Seçim yenə Ermənistanındır.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

## Azərbaycan-Gürcüstan əməkdaşlığı yeni mərhələyə qədəm qoyur

"Prezident İlham Əliyevin oktyabrın 8-də Tbilisiyə işgüzar səfəri Azərbaycan-Gürcüstan münasibətlərinin daha da inkişaf etdirilməsində əhəmiyyətli rola malikdir. Bu səfər dostluq münasibətlərinin daha da dərinləşməsinə təkan verəcək".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Səbinə Xasayeva deyib. O bildirib ki, dövlətlərarası əlaqələr qarşılıqlı ehtiram və inama əsaslanır. Əgər qonşu dövlət dostluğa deyil, işğala meyillidirsə, mövcud normalar pozulur, bəzən də müharibəyə səbəb olur. Azərbaycanın qonşularından biri - Ermənistanın torpaqlarımızın bir hissəsini öz ərazisinə birləşdirmək istəyi də onun riyakarlığından və normal qonşu ola bilməməsindən irəli gəlirdi. Bu səbəbdən elan edilməyən müharibə başladı, Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etdi. Lakin 30 ildən sonra Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində erməni işğalını sonlandırdı, lokal xarakterli antiterror tədbirləri ilə suverenliyini tam bərpa etdi.

Deputat bildirib ki, Gürcüstanla tarixən mehriban qonşuluq və dostluq əlaqələrimiz olub. Bu münasibətlər həmişə ehtiramla davam etdirilib. Azərbaycanla Gürcüstan arasında dostluq münasibətləri həm də iki respublikanın liderlərinin - Heydər Əliyevin və Eduard Şevardnadzenin dostluğunun, bu dostluq isə iki xalqın yüksək münasibətlərinin zəmanəti olub. Oktyabrın 8-də Tbilisidə işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev bu barədə demişdi: "Sovet dövründə onlar bir-biri ilə sıx təmasda idilər və o vaxt sovet Gürcüstanının, sovet Azərbaycanının rəhbərləri xalqlarımızı daha da birləşdirmək üçün böyük səylər göstərmişdilər. Bu iki parlaq şəxsiyyət sovet dövründə də öz istedadı, cəsarəti və öz xalqlarına olan bağlılığı ilə fərqlənirdi. Məhz onların fəaliyyəti nəticəsində müstəqil Gürcüstan, müstəqil Azərbaycan inkişaf etməyə başlamışdır".

S.Xasayeva qeyd edib ki, bu, Prezidentin Gürcüstana 11-ci səfəri idi: "Bundan əvvəl ötən il oktyabrın 24-də dövlətimizin başçısı Gürcüstanda, Mçxetada işgüzar səfərdə olub. Eyni zamanda bu il aprelin 7-də Gürcüstanın Baş naziri İ.Qaribaşvili ölkəmizə işgüzar səfər edib. Bu səfərlər Azərbaycan Prezidentinin və Gürcüstan Baş nazirinin görüşlərinin müntəzəmliyini artırıb, səfərlərin paytaxtlara deyil, bölgələrə keçirilməsi kimi yeni bir ənənə yaradıb. Dünya ictimaiyyəti bu səfərləri həm də mənəvi bağlılığın nəticəsi kimi qəbul edəcək".

Deputatın sözlərinə görə, belə görüşlər çərçivəsində müvafiq məsələyə dair müəyyən informasiyalar verilir, gələcək perspektivlərin konturları müəyyənləşdirilir. Tbilisidə iki dövlət arasında münasibətlərin tərkib hissəsi kimi iqtisadi münasibətlərə də toxunulub. Bu, müstəqilliyin ilk vaxtlarından bəri daha da inkişaf etdirilən iqtisadi siyasətin uğurlarındandır. Cənab İlham Əliyev bu uğurların davamlı olacağını əminliklə bildirdi. "Əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır. Azərbaycan böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilər. Anakliya limanı və Kulevi limanı əməkdaşlığımızı daha da gücləndirəcək. Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da Orta dəhlizin güclənməsinə xidmət göstərəcək".

Müsahibimiz vurğulayıb ki, Azərbaycanla Gürcüstan arasında beynəlxalq təşkilatlar çərçivəsində də qarşılıqlı dəstək təcrübəsi var. BMT Baş Assambleyasının 2020-ci il sentyabrın 3-də, 2021-ci il iyunun 17-də, 2022-ci il iyunun 8-də keçirilmiş sessiyalarında "Abxaziya (Gürcüstan) və Cənubi Osetiyada (Gürcüstan) məcburi köçkün və qaçqınların vəziyyəti barədə" qətnamələrə dair səsvermə zamanı Azərbaycan sözügedən sənədin lehinə səs verib. Bu, Gürcüstanla dostluğun ifadəsi kimi tarixiləşib.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

## Azərbaycanın tranzit cəlbediciliyi artacaq

### Zəngilandan Naxçıvana çəkiləcək yeni yollar önəmli kommunikasiya bağlantısı olacaq

"Azərbaycan hökuməti ilə İran ötən ilin sentyabrında Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasının birləşdirilməsi üçün İran ərazisindən keçməklə infrastrukturun yaradılmasına dair anlaşma memorandumu imzalayıb. Əldə olunmuş razılığa əsasən, 2022-ci il sentyabrın 22-də isə Zəngilan rayonu ərazisində hər iki ölkə rəsmilərinin iştirakı ilə avtomobil körpüsünün təməlqoyma mərasimi baş tutub".



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, bu layihə çərçivəsində artıq Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib, tikinti işlərinə başlanılıb: "Bu layihə Zəngəzur dəhlizinin bir hissəsi kimi mühüm əhəmiyyət kəsb edir və ölkələr arasında əlaqələri daha da dərinləşdirən, əməkdaşlıq üçün yeni perspektivlər vəd edən önəmli bir kommunikasiya xətti hesab edilə bilər. Bu yollar yalnız Azərbaycana deyil, bütövlükdə region ölkələrinə yeni iqtisadi imkanlar yarada bilər".

Deputat hesab edir ki, bu həm də dost ölkələr üçün əlverişli imkanlar yaradacaq. Belə ki, həmin ölkələr ixrac mallarını tikiləcək yeni yollar vasitəsilə Orta Asiya və Avropaya nəql etmək imkanı qazanacaqlar. A.Hüseynov qeyd edib ki, Araz çayı üzərindən tikintisi başlanılan körpünün koordinatları və texniki parametrləri, körpüyə yaxınlaşma yolu layihəsi, ərazidə yaradılacaq müvafiq sərhəd-gömrük məntəqəsinin göstəriciləri bu layihələrin əhəmiyyətli kommunikasiya qovşağı olacağından xəbər verir. Avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun göstəriciləri ölkələrin ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcək. "Yeni avtomobil yolunda 7 gediş-gəliş xətti olacaq. Dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcəyi yük-nəqliyyat vasitələrinin sayı da onu deməyə əsas verir ki, tezliklə regionun tranzit cəlbediciliyi artacaq".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## QHT-lərə Dövlət Dəstəyi Agentliyi 2024-cü il üzrə qrant müsabiqələri elan edib




Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2024-cü il üzrə kiçik, orta və böyük qrant müsabiqələrini elan edib. Hər 3 müsabiqə üzrə QHT-lərin layihə təkliflərinə dair sənədlərin qəbuluna 2023-cü il noyabrın 10-də başlanacaq. Müraciət üçün son tarix 10 dekabr 2023-cü ildir.

Bundan sonra QHT-lərdən toplanmış layihə təkliflərinə dair sənədlərin ekspertizası aparılacaq, layihələr təhlil ediləcək və qaliblər müəyyənləşdiriləcək. Müsabiqənin nəticələri 2024-cü ilin fevralında elan olunacaq. Qrant məbləğlərinin yuxarı həddi və icra müddəti belə müəyyənləşib: Kiçik qrant müsabiqəsi üzrə: 15000 manat (icra müddəti 6 ayadək); Orta qrant müsabiqəsi üzrə: 30000 manat (icra müddəti 9 ayadək); Böyük qrant müsabiqəsi üzrə: 50000 manat (12 ayadək).

Layihə təklifinin kiçik, orta, yoxsa böyük qrant müsabiqəsinə uyğunluğu QHT tərəfindən sərbəst müəyyən edilir, hətta bütün müsabiqələrə uyğun fərqli layihələr təqdim etməkdə məhdudiyyət yoxdur. Lakin nəzərə alınmalıdır ki, agentlik eyni QHT-nin təqvim ili ərzində kiçik, orta və böyük qrant müsabiqələri üzrə yalnız 1 layihəsini maliyyələşdirə bilər. QHT-nin seçimini düzgün aparması, 1 layihə təklifi üzrə kiçik, orta və böyük qrant müsabiqələrindən yalnız birinə müraciət etməsi arzuolunandır.

Müsabiqələr bu kateqoriyalar üzrə mövzuları ehtiva edir: Ətraf mühitin qorunması, sağlam və təhlükəsiz həyat, həssas qruplarla iş, sosial-iqtisadi inkişaf; Cənubi Qafqazda sülh və etimad quruculuğu, Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi; İtkin düşmüş, əsir və girov götürülmüş şəxslərin hüquqlarının müdafiəsi, mina və partlamamış hərbi sursatların yaratdığı təhlükə və onunla mübarizə; Qərbi Azərbaycana qayıdış prosesi; Milli, ictimai və beynəlxalq əhəmiyyətli digər təşəbbüslər.

Texniki ekspertizadan keçdikdən sonra layihələr məqsədinin aydınlığı, innovativliyi, icra müddətinin əsaslandırılması və davamlılığı, büdcəsinin qrant məbləğinə uyğun olması, QHT-nin və işçi heyətin müvafiq layihə mövzusuna uyğun təcrübəsi, risklərin təhlili, benefisiarların düzgün müəyyən edilməsi, icrası zamanı müvafiq tərəfdaşlarla və media ilə əməkdaşlıq, QHT-nin təqdim etdiyi layihə mövzusunun nizamnamə məqsədlərinə uyğunluğu, layihədən gözlənilən nəticələr əsasında 100 ballıq sistem üzrə qiymətləndiriləcək.

QHT-lər layihə təkliflərini agentliyin saytında xüsusi bölmə vasitəsilə elektron qaydada təqdim etməlidir. Şəxsən, poçtla və ya e-poçt vasitəsilə təqdim olunan layihə təkliflərinə dair sənədlər qəbul olunmur.

Qeyd edək ki, müsabiqə ilə ətraflı məlumatı **https://ngoagency.gov.az/az** saytından əldə edə bilərsiz.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# Bu, ilahi ədalətdir



## Bütün müharibə canilərinə mühakimə üçün növbə çatacaq

Əli günahsız insanların qanına bulaşmış erməni müharibə caniləri artıq on illərdir ki, Azərbaycan dövləti tərəfindən beynəlxalq axtarışa verilib.

Vətən müharibəsindən sonra isə vaxtilə yüz minlərlə soydaşımıza yurd itkisi yaşadanlar, azərbaycanlılara qarşı müxtəlif təxribat və soyqırımı törədənlər ard-arda həbs olunurlar. Bu, sübut edir ki, ərazilərimizdən qaçaraq dünyanın müxtəlif ölkələrində gizlənən müharibə canilərinin də cəzalarına çatacaqları gün mütləq gələcək. Azərbaycanlılara qarşı cinayətlər törətmiş bütün erməni caniləri gec və ya tez layiqli cəzalarını alacaqlar.

Milli Məclisin deputatı Elman Məmmədov "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, erməni müharibə canilərinin törətdikləri cinayətlər hər kəsə məlumdur: "1988-ci ilin fevralından başlayaraq "Dağlıq Qarabağın Ermənistana birləşməsi" şüarı ilə ortalığa çıxan cinayətkarlar Azərbaycan dövlətinə qarşı itaətsizliyə başladılar, qiyam qaldırdılar, təbesizlik göstərdilər. Bu azmış kimi, onlar 1991-ci il sentyabrın 2-də "Dağlıq Qarabağ Respublikası" adlandırılan uydurma, separatçı və cinayətkar qurum yaratdılar. Təbii ki, həmin qurumun yaradılmasında əli olanların, ona rəhbərlik edənlərin bəziləri hələ o dövrdə yaşlı nəslin nümayəndələri olduqlarına görə, indi artıq gorbagor olub cəhənnəmə gediblər. Lakin onların arasında sağ qalanlardan bir neçəsi Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən artıq həbs olunublar və cəzalarını gözləyirlər. Ancaq belə müharibə cəlladlarının sayı çoxdur. Erməni canilərinin hər biri həbs olunaraq layiqli cəzalarını alacaqlar".

Deputat qeyd edib ki, başqa ölkələrdə gizləndikləri ehtimal olunan cinayətkarlar beynəlxalq axtarışa verilib. Azərbaycan hələ Vətən müharibəsindən əvvəl də həmin cəlladların layiqli cəzalarına çatmaları üçün interpol xətti ilə axtarış verib. Yəqin ki, onların hamısı bir nəfər kimi həbs olunub əlləri qandallanaraq ölkəmizə gətiriləcək və cəzalarını alacaqlar.

Elman Məmmədovun sözlərinə görə, Koçaryan, Sarkisyan, Ohanyan və Babayan kimi yüzlərlə cani hazırda Ermənistanda yuva tapıblar. Prezident İlham Əliyev demişkən, siçan kimi qaçıb gizləniblər. Onlar törətdikləri cinayət əməllərini özləri hər kəsdən yaxşı bilirlər. Yaxşı başa düşürlər ki, insanlığa qarşı ağır cinayətlər və soyqırımları həyata keçiriblər. Onların hər biri türk qatilidir, körpə uşaqlara işgəncə verməklə onları qətlə yetirən və bununla qürur duyan cinayətkar Zori Balayana bənzəyirlər.

"Həmin cəlladlara deyəndə ki, siz həbs olunacaq və cəzanıza çatacaqsınız, onlar inanmırdılar. Ancaq görürsünüz, Arayik Harutyunyan əlləri qandallı şəkildə Bakıya gətirilib. Hesab edirəm ki, cəzasız qalan olmayacaq, onlar dünyanın harasında gizlənsələr də, gec ya tez, tapılaraq məsuliyyətə cəlb olunacaqlar. Günahsız, silahsız insanlara qarşı amansız davranan, körpə uşaqlara, qocalara, qadınlara min bir işgəncə verənlərin cəzası mütləq kəsilməlidir", - deyə deputat əlavə edib.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

### Milli kimliyimizə düşmən kəsilərək qoca, uşaq, qadın demədən xalqımızın qanına susayan erməni qatillər Azərbaycan qanunları ilə mühakimə edilirlər











Azərbaycan xalqı olaraq qəlbimizdə alışan bir qərinəlik intiqam alovunun üzərinə su çilənən, ürəyimizdə alışan qisas hissinin səngiməsinə, ruhumuzun dinclik tapmasına səbəb olan tarixi anlar yaşayırıq.

Milli kimliyimizə düşmən kəsilərək qoca, uşaq, qadın demədən xalqımızın qanına susayan, onlara qarşı bəşər tarixində rastlanmamış cinayət əməlləri törədən qatil ermənilər - Vaqif Xaçatryan, Ruben Vardanyan, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan... kimi ünsürlər bir-bir tutularaq törətdikləri cinayət əməllərinə görə Azərbaycan qanunları ilə mühakimə edilirlər.

Bir zamanlar Qarabağda, digər işğal etdikləri ərazilərimizdə əliyalın insanlarımıza divan tutmaları, o cümlədən Gəncədə, Tərtərdə, Bərdədə terror törədərək mülki insanlarımızı qətlə yetirmələri ilə öyünən bu canilər indi qanlı əməllərinin haqq-hesabını verirlər.

### Qan yaddaşımız

Hələ 1992-ci il fevralın 26-na - əsrin müsibəti olan Xocalı soyqırımına qədər erməni qatilləri azərbaycanlılara qarşı ard-arda kütləvi qətliamlar törətmişlər. Azərbaycanın Ermənistanla həmsərhəd olan Qazax rayonunun Bağanis Ayrım kəndinin, keçmiş Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdi. Ermənilərin təkcə Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın nəticəsində kəndin hər 10 sakinindən biri şəhid olmuş, 104 nəfər və müdafiə dəstəsinin 15 üzvü əsir götürülmüş, onlardan 80 nəfəri qətlə yetirilmişdi.

1992-ci il fevralın 26-da Xocalıda erməni qatillərinin törətdiyi soyqırımı nəticəsində isə 613 nəfər qətlə yetirilib. Həmin zaman erməni vəhşiləri tərəfindən girov götürülən 1275 nəfərə ağlasığmaz işgəncələr verilib. Bu gün də həmin girovlardan 150 nəfərin taleyi məlum deyil.

Ermənistanın sabiq prezidenti, Xocalı qatili Serj Sarkisyan 2000-ci ildə britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində Xocalıdakı qanlı əməlləri nə üçün törətdiklərini vəhşiliyə xas qürrə ilə etiraf etmiş, jurnalistin "Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına belə bir murdar cavab vermişdi: "Heç bir peşmanlığım yoxdur".

Xocalı soyqırımından sonrakı dövrlərdə də Azərbaycan xalqı dəfələrlə erməni faşizmi ilə üz-üzə qaldı. Eləcə də Vətən müharibəsi dövründə savaş meydanından uzaqda yerləşən şəhər və kəndlərimizə raket zərbələri endirilərək mülki əhalimiz hədəfə alındı. Həmin zaman Gəncə şəhərini vur əmrini verdiyini kamera önündə fəxrlə dilə gətirən qatil Arayik Harutyunyan sələfi Serj Sarkisyan kimi erməni xislətini dünyaya bəyan eməkdən çəkinmədi.

Serj də, Arayik də, digər qaniçən ermənilər də iyrənc əməllərinin qisasının heç zaman alınmayacağının arxayınlığına qapılaraq elə düşünürdülər ki, Azərbaycan torpaqlarının işğalı, etnik təmizləmə ilə barışacaq, xalqımıza qarşı soyqırımları törədən qatilləri cəzasız qoyacaq.

### Düşmənə nifrət və qəzəb hissimizi daim o faciələrin yaşandığı tarixlərdə olduğu kimi saxladıq

Ötən 30 il ərzində çox çarəsiz anlarımız oldu...

20 Yanvar, 26 Fevral, 18 Aprel günlərində... rayonlarımızın işğalı zamanlarında yaşanan müsibətlərə görə illərlə acı göz yaşları tökdük, qəddarlıqla öldürülən insanlarımızın taleyinə ağladıq. Məhrumiyyətlər içərisində zülm-zillətlə yurdundan ayrı yaşamağa məcbur olan insanların halına ürəyimiz ağrıdı.

Övladları gözləri önündə tikə-tikə doğranan xocalılılara təsəlli verməyə söz tapmadıq...

Dərddən havalanan, qol götürüb saçlarını yola-yola oynayan analara yandıq...

Xocalının bağrı qanlı körpələrinə, uşaqlarına ana-atalarının yoxluğunu izah edə bilmədik...

Bəli, Azərbaycan xalqı olaraq son üç ilə qədər çox ağır sınaqlarla, dərd, ələmlə dolu zaman yaşadıq, amma düşmənə olan nifrətimizi heç zaman unutmadıq.

Xocalıda, Ballıqayada, Ağdabanda, Başlıbeldə və daha neçə-neçə sadalamadığımız ərazilərimizdə xalqımızın başına müsibətlər açan qaniçən düşmənə olan qəzəb hissimizi daim təzə saxladıq.

Bir gün mütləq erməni qatillərindən intiqamımızı alacağımızın, Yer üzündən silinən ailələrin, süngülənən körpələrin, başı kəsilən uşaqların, təhqir olunan, diri-diri yandırılan, basdırılan qadınların, qocaların ruhları qarşısında onların qisasını qiyamətə qoymayacağımızın müqəddəs andını içdik.

Yurdundan didərgin salınaraq səfalət içərisində yaşamağa məcbur olan yüz minlərlə keçmiş məcburi köçkünümüzün bir gün mütləq torpaqlarına qovuşdurulacağının sözünü verdik.

Elə bəlkə də bu müqəddəs and sayəsində qəddimizi əyən ağrı-acı, kədər yükünə dözüm gətirə bildik, qəlbimizdə alışan birqərinəlik qisas alovu ilə düşmənlərin külünü göyə sovuraraq 44 günlük Vətən müharibəsində Zəfərə yetdik.

2020-ci ildə Vətən müharibəsində qəhrəman Azərbaycan oğulları cəmi 44 günə əliyalın insanlarımızın qatilinə çevrilən qaniçən ermənilərin nəfəslərini kəsdilər. Torpaqlarımızı işğaldan azad edərək, Qarabağın, Şərqi Zəngəzurun ən uca zirvələrində üçrəngli bayrağımızı dalğalandırdılar.

2023-cü ildə Qarabağda keçirdikləri antiterror tədbirləri sayəsində cəmi 23 saata erməni quldurlarının mənfur yuvasını darmadağın edən yenilməz igidlərimiz bizə suverenliyimizi bəxş etdilər.

Polad iradəli azman oğullarımız ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın, erməni faşizminin qurbanı olan günahsız mülki vətəndaşlarımızın da qisaslarını layiqincə aldılar.

### Milli qürur yaşayırıq

Bu igidlərimizin şücaəti sayəsində xalqımızın qanına susamış erməni qatilləri də bir-bir tutularaq qanunlarımız qarşısında sorğulanırlar.

Çağdaş Azərbaycan vətəndaşları olaraq, xalqımızın milli qürur yaşadığı bu tarixi hadisələrin şahidinə çevrilməyimizlə ikiqat qürur duyur, fəxr və xoşbəxtlik hissi keçiririk.

Onsuz da bilirdik, əmin idik ki, bir gün erməni cəlladlarından qisasımız alınacaq. Amma Tanrıya şükürlər edirik ki, bu intiqamın alındığını, erməni qatillərinin başıaşağı, əliqandallı vəziyyətdə Bakıya gətirildikləri günləri gözlərimizlə gördük.

Xocalılılar, meşəlililər, ballıqayalılılar, ağdabanlılar, başlıbellilər... bir zaman onlara dəhşət yaşadan erməni qaniçənlərinin indi qorxudan qanlarının çəkildiyini, tir-tir əsdiklərini, layiqli cəzalarını aldıqlarını gördülər.

Serj Sarkisyan, Robert Koçaryan kimi qaniçən canilərin də Azərbaycan qanunları ilə mühakimə olunacağına mütləq şahidlik edəcəyik.

O da bir başqa möhtəşəm məqamdır ki, Azərbaycanın torpaqlarını işğaldan azad edərək cənnətə çevirməsini, didərgin insanlarını qayıdış karvanları ilə yurda döndərməsini, Qarabağda separatizmin başını əzməsini, suverenliyini tam bərpa etməsini, xalqımıza qarşı cinayət əməlləri törədən qatilləri qanunları qarşısında cavab verməyə məcbur etməsini görmələrinin özü də elə erməni faşistlərinin, uşaq qatillərinin bağrına ox, gözlərinə mil və onlar üçün dünyadakı ən dəhşətli cəzadır...

Və bütün bunlara İlahi ədalət deyilir...

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## 11 oktyabr 2020-ci il — ZƏFƏR gündəliyi

**Oktyabrın 11-də** Ermənistanın silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə tutur. Gecə saat 02:00 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə ermənilərin atdığı raket nəticəsində yaşayış binası tamamilə dağılır, bina sakinləri dağıntılar altında qalır.

4-ü qadın olmaqla 9 nəfər həlak olur, 35 nəfər yaralanır. Bundan başqa, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyir. Yaralı şəxslərdən biri müalicə olunduğu xəstəxanada vəfat edir.

❖❖❖



Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edərək dünya birliyini baş verən bu hadisəyə laqeyd qalmamağa çağırır. Qeyd edir ki, beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər. Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda





nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Birinci vitse-prezident həmçinin xalqa müraciət edir:

*"Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!"*

❖❖❖

Bütün cəbhəboyu vəziyyət gərgin, sabit olaraq qalır.

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə canlı qüvvə və döyüş texnikasını cəmləşdirərək yenidən kiçik qruplarla cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərir. Gecə ərzində düşmənə atəş zərbəsi vurulmaqla onun bütün hücum cəhdlərinin qarşısı alınır.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd D-20 və D-30 haubitsası, 5 ədəd sursatla dolu yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası məhv edilərək sıradan çıxarılır.

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun işğal etdiyi ərazilərdəki əsas qüvvələri və ehtiyatlarına ciddi ziyan vurulub, silah-sursat və yanacaq tükənmək üzrədir. Ermənistan hərbi komandanlığı psixoloji gərginlik, şəxsi heyət isə qorxu içindədir. Erməni əsgərlərin



komandirlərinə inamı itir.

Ermənilərin 1-ci, 5-ci və 9-cu motoatıcı alaylarının döyüş mövqelərini özbaşına tərk edən hərbi qulluqçularının sayı kütləvi hal alıb. Hərbi polis bu cür əsgərlərin məcburən səngərlərə geri qaytarılmasında aciz qalır.

Məlumata əsasən, canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 1-ci motoatıcı alayın komandirinin müavini polkovnik-leytenant Artak Vanyan da var.

Qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünə malikdir.

❖❖❖

Səhər saat 08:00 radələrində Mingəçevir istiqamətində uçuşlar həyata keçirməyə cəhd edən Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

❖❖❖

Azərbaycan Müdafiə Nazirliyi bəyanat yayır. Sənəddə qeyd edilir ki, humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları aparılan ərazidən xeyli aralıda yerləşən şəhər və kəndlərimizi raket və artilleriya atəşinə tutmaqda davam edir.

Oktyabrın 10-u və 11-ində, müxtəlif saatlarda Gəncə və Mingəçevir şəhərləri, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri işğalçı ordu tərəfindən atəşə məruz qalıb. Nəticədə xeyli sayda dinc sakin həlak olub və yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib.

Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*



# *Baş Prokuror:* "Müharibə cinayətkarlarının axtarışları davam edir"

Birinci Qarabağ müharibəsi və Vətən müharibəsi dövründə erməni terroru ilə bağlı Hərbi Prokurorluq, Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən çoxsaylı cinayət işləri açılıb və davam etdirilir.

Bu fikirləri AZƏRTAC-a Gəncədə ermənilərin raket hücumu nəticəsində dağılan əraziləri ziyarət edərkən Baş prokuror Kamran Əliyev deyib.

O bildirib ki, müharibə cinayətkarlarının axtarışları davam edir.

"Gəncəyə raket zərbələrinin endirilməsi, dinc əhalinin, xüsusilə də uşaqlar, qadınlar və yaşlıların öldürülməsindən 3 il ötür. Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində biz bu cinayəti törədənlərin bir qismini məsuliyyətə cəlb etmişik, istintaq davam edir",- deyə K.Əliyev bildirib.

Daha sonra Kamran Əliyev "Qələbə" parkında ermənilərin raket hücumu nəticəsində dağılan əraziləri ziyarət edib, həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, dağılmış evlərin ətrafına gül dəstələri düzüb.

# *Levan MAMALADZE:* "Prezident İlham Əliyev bütün imkanlardan səmərəli istifadə edərək çox böyük uğurlar qazandı"

"Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze tərəfindən qoyulmuş dostluq və qardaşlıq münasibətləri bu gün uğurla inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana son səfəri zamanı səsləndirdiyi fikirlər də bunu bir daha sübut edir".



Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın Strateji Planlaşdırma Mərkəzinin rəhbəri Levan Mamaladze söyləyib.

Onun sözlərinə görə, bu gün regionda reallaşdırılan irimiqyaslı enerji və nəqliyyat layihələri bizim dostluğumuzu daha da möhkəmləndirir. Azərbaycan stabil ölkədir və zəngin karbohidrogen ehtiyatlarına malikdir. Prezident İlham Əliyev bütün imkanlardan səmərəli istifadə edərək çox böyük uğurlar qazandı. Onun rəhbərliyi altında Azərbaycan Ordusu torpaqları işğaldan azad etdi. Bu, təkcə Azərbaycan üçün faydalı olmadı. Azərbaycan bununla regionda sülhün və əmin-amanlığın əsasını qoydu. Azərbaycanın bu Qələbəsi digər münaqişələrin həlli üçün də yol açır: "Prezident İlham Əliyev həm də dünyaya nümayiş etdirdi ki, münaqişələri çox qısa zamanda həll etmək olar və hətta düşmənin özü ilə də birbaşa danışıqlar aparmaq olar. Bu, bütün dünya üçün bir nümunədir".

L.Mamaladze deyib ki, bu gün Azərbaycan-Gürcüstan münasibətləri dünyada nümunədir. Bizim liderlərimiz tərəfindən ortaya qoyulmuş möhkəm siyasi iradə nəticəsində iqtisadi və digər sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. İqtisadi əlaqələrimizdən danışırkən yalnız neft və qaz, nəqliyyat layihələrini nəzərdə tutmaq olmaz. Biz bu gün daha böyük, qlobal layihələr üzərində işləyirik. Bu, Şərqlə Qərbi birləşdirəcək Orta Dəhliz layihəsidir. Bu layihənin daha da böyük uğur gətirməsi üçün Anakliya limanı tikilir. Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin bu məsələdə yekdil fikirdə olması onu deməyə əsas verir ki, layihə həqiqətən də böyük gəlirlər gətirəcək və bizim xalqlarımızın rifah halı daha da yaxşılaşacaq.

"Düşünürəm ki, xalqlarımız da dövlət və hökumət başçılarımızın ətrafında sıx birləşməli və münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmalıyıq. Bütün dünyaya sübut etməliyik ki, Azərbaycan ilə Gürcüstan regionun əsas aparıcı ölkələri olmaqla yanaşı, hamı üçün nümunə olan dost, qardaş ölkələrdir",- deyə Mamaladze vurğulayıb.

# Nazirlər Kabinetində Naxçıvanın sosial-iqtisadi inkişafına dair iclas keçirilib



Oktyabrın 10-da Nazirlər Kabinetində "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" ilə bağlı iclas keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Proqramında nəzərdə tutulmuş işlər üzrə əsas icraçı orqanların rəhbərlərinin müavinlərindən ibarət məsul şəxslərin iştirak etdikləri iclasda Proqramın icra vəziyyətinə dair məsələlər müzakirə edilib.

Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov bildirib ki, Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyən edilmiş 11 prioritet üzrə genişmiqyaslı tədbirlərin görülməsi nəzərdə tutulur. Belə ki, Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə təsdiq olunmuş sözügedən Dövlət Proqramının 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planında biznes mühiti, ticarət, sənaye, kənd təsərrüfatı, turizm, energetika, infrastruktur, insan kapitalı və sosial sektorun inkişafı, institusional və ətraf mühit sahələrində 315 tədbirin həyata keçirilməsi nəzərdə tutulub. Qeyd olunub ki, Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Nazirlər Kabinetinin sifarişinə əsasən, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən həyata keçirilir. Dövlət Proqramının monitorinq və qiymətləndirilməsinin aparılmasının təmin edilməsi məqsədi ilə monitorinq və hesabatlıq portalı, o cümlədən "Metodoloji çərçivə" hazırlanıb.

Sonra İİTKM-in icraçı direktoru Vüsal Qasımlı monitorinq və hesabatlıq portalını təqdim edib, monitorinq və qiymətləndirilmənin aparılması qaydaları haqqında məlumat verib. Qeyd edib ki, aidiyyəti qurumlar tərəfindən portalda yerləşdirilən məlumatlar əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən monitorinq və qiymətləndirmələr aparılaraq, nəticələri Nazirlər Kabinetinə təqdim olunacaq.

Daha sonra iclasda Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər üzrə görülən işlərin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

# Türk Dövlətləri Təşkilatının Türk Abidə Menecerləri Şəbəkəsinin təsis edilməsi ilə bağlı Bakı Bəyannaməsi imzalanıb



Oktyabrın 10-da "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Türk Dövlətləri Təşkilatının təşkilatçılığı ilə "Yaşanılabilən və Dayanıqlı İrs Şəhərləri" mövzusunda beynəlxalq konfrans çərçivəsində Türk Abidə Menecerləri Şəbəkəsinin təsis edilməsi ilə bağlı Bakı Bəyannaməsi imzalanıb.

AZƏRTAC xəbər verir ki, Bəyannamə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın müvafiq qurumları arasında imzalanıb.

Şəbəkənin yaradılmasında əsas məqsəd Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi statusunda olan ölkələrinin tarixi şəhər və qoruqları arasında mədəni irsin qorunması, bərpası, birgə təşviqi sahəsində əməkdaşlığın genişləndirilməsidir.

Qeyd edək ki, 2022-ci il noyabrın 11-də Özbəkistanın Səmərqənd şəhərində Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü zamanı təşkilat nəzdində Türk Abidə Menecerləri Şəbəkəsinin yaradılmasına dair qərar verilib və Sammitin Yekun Bəyannaməsinə daxil edilib.

# AŞ PA-nın payız sessiyasında azərbaycanlı deputatın məruzəsi əsasında qətnamə layihəsi qəbul edilib

Avropa Şurası Parlament Assambleyasının 2-ci plenar iclası Avropa Şurasının (AŞ) Baş katibi Mariya Buriçin parlamentarilərin suallarını cavablandırması ilə başlayıb.

AZƏRTAC xəbər verir ki, Avropalı parlamentarilər onları maraqlandıran suallarla Baş katibə müraciət ediblər.

Sonra AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun məruzəsi əsasında hazırlanmış "İfrat sağçı ideologiya: Avropada demokratiya və insan haqları üçün çağırışlar" adlı qətnamə layihəsinin müzakirəsi olub. Əvvəlcə S.Seyidov çıxış edərək, Parlament Assambleyasını Avropada demokratiya və insan haqlarının qorunmasına və gücləndirilməsinə töhfə verməyə və bu qətnaməni qəbul etməyə çağırıb. Bildirib ki, insan haqları, demokratiya və qanunun aliliyi kimi, ümumi dəyərlərə sadiqlik sülh üçün ilkin şərtdir. Bu dəyərləri sarsıtmağa, demokratiyanı rədd etməyə çalışan, insan hüquqlarını pozan, qanunun aliliyinə məhəl qoymayan ideologiyalar bu dəyərlərə müxalifdir. Bildirib ki, ifrat sağçı ekstremizm ksenofobiya, antisemitizm, islamofobiya və cəmiyyətlərimiz üçün ciddi təhlükə yaradan digər zorakılıq növləridir. İfrat sağçı ekstremizm Avropa ölkələrində sürətlə artan təhlükələrdən biridir.



O, ifrat sağçı ideologiyanın ictimai sahədə geniş yayılmasına, insan hüquqları, demokratiya və hüquqi dövlət ilə bir araya sığmayan ideologiyalara qarşı qoruyucu tədbirlərin təkmilləşdirilməsi və uyğunlaşdırılması zərurətini qeyd edib.

Avropalı parlamentarilər qətnamə layihəsinin mövzusunun vacibliyini vurğulayıblar. Qətnamə layihəsi müzakirə olunduqdan sonra səsə qoyularaq qəbul edilib.

Qətnamə layihəsinin müzakirələri zamanı erməni deputatlar həmişə olduğu kimi, destruktiv mövqelərini yenə nümayiş etdiriblər. Onlar ifrat sağçı ekstremizmdən bəhs edərkən elə ifrat sağçı ekstremistlərdən də zorakı danışıblar.

Plenar iclas Fransanın Avropa Şurasına üzvlük öhdəliklərinə əməl etməsi ilə bağlı məruzənin müzakirəsi ilə işini davam etdirib.

# Bakıda "Yaşanılabilən və Dayanıqlı İrs Şəhərləri" mövzusunda beynəlxalq konfransın açılış mərasimi olub





Oktyabrın 10-da "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və Türk Dövlətləri Təşkilatının təşkilatçılığı ilə "Yaşanılabilən və Dayanıqlı İrs Şəhərləri" mövzusunda beynəlxalq konfransın açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, konfransda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və ali təhsil müəssisələrinin, beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə bildirib ki, Azərbaycan ərazisində mövcud olan maddi mədəniyyət nümunələri yalnız Ulu Öndər Heydər Əliyevin 1969-cu ildən ölkəyə rəhbərlik etməsindən sonra dövlət qayğısı ilə əhatə olunub.

Qeyd edilib ki, Ulu Öndərin təşəbbüsü ilə 1977-ci ildə Bakı şəhərində İçərişəhərin tarixi hissələri tarix-memarlıq qoruğu elan edilib. Eyni zamanda Prezident İlham Əliyevin fərman və sərəncamlarına əsasən, qoruq ərazisində tarix və mədəniyyət abidələrinin qorunması üçün daim müvafiq tədbirlər həyata keçirilir.

Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Sədi Cəfərov təşkilatın zəngin mədəni irsimizin qorunması və gələcək nəsillərə ötürülməsində böyük rol oynadığını vurğulayıb. Həmçinin təşkilatın beynəlxalq qurumlarla əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, Azərbaycan bu il Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. O, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda tarixi-mədəni irsimizin qorunub saxlanılması üçün böyük işlər gördüyünü vurğulayıb. Qeyd edib ki, eyni zamanda Azərbaycan xalqının mədəni irsinə, onun qorunmasına və bərpasına dövlətimizin başçısı böyük önəm verir.

S.Yusifova vurğulayıb ki, Azərbaycan ərazilərinin işğaldan azad olunmasından 3 il keçməsinə baxmayaraq, həmin ərazilərdə abidələrin monitorinqi hələ də yekunlaşmayıb: "Abidələrin monitorinqini yekunlaşdırmaq çətindir. Buna səbəb həmin ərazilərdə minaların olmasıdır. Monitorinqin başa çatması üçün həmin yerlər minalardan təmizlənməlidir, bundan ötrü isə kifayət qədər maliyyə vəsaiti lazımdır".

Tədbirdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev, TÜRKSOY Baş katibinin müavini Sait Yusuf, Türk Mədəniyyəti və İrsi Fondunun Layihə rəhbəri Nuri Aksu, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Baş katibi Seymur Fətəliyev, Mədəni Mülkiyyətin Qorunmasının və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) direktoru Josef Kinq və Ümumdünya İrs Şəhərləri Təşkilatının Baş katibi Mikael dö Tiz (video-müraciət) çıxış ediblər. Bildirilib ki, hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməlidir.

Çıxış edənlər Türk Dövlətləri Təşkilatının Türk Abidə Menecerləri Şəbəkəsinin təsis edilməsinə dair Bakı Bəyannaməsinin imzalanacağını bildiriblər. Qeyd edilib ki, şəbəkənin yaradılmasında əsas məqsəd Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi statusunda olan ölkələrinin tarixi şəhər və qoruqları arasında mədəni irsin qorunması, bərpası, birgə təşviqi sahəsində əməkdaşlığın genişləndirilməsidir.

Beynəlxalq konfransda tarixi şəhərlərin idarə olunması, tarixi abidələrin konservasiyası və bərpası, eləcə də davamlı turizm, tarixi şəhər və qoruqlarda rəqəmsal transformasiya, muzey işinin təşkili və sair mövzular üzrə müzakirələr aparılıb.

Qeyd edək ki, konfrans çərçivəsində Bakı Marionet Teatrında "Təsirlərə davamlı və dayanıqlı İrs Şəhərləri/Abidələri: Mədəni mühitin abidələrin effektiv idarəçiliyi və konservasiyası vasitəsilə canlandırılması", Bakı Fotoqrafiya Evində "İrs Şəhərlərində/Məkanlarında Turizmin davamlı inkişafı", Tahir Salahovun ev muzeyində isə "İrs şəhərlərinin muzeyləri innovativ və yaradıcı məkanlar kimi" mövzularında tematik panellər təşkil olunub.

Konfrans oktyabrın 13-dək davam edəcək.

# *Xarici QHT-lər:* "Azərbaycan mina problemindən xeyli əziyyət çəkir"

Bir qrup xarici QHT, vətəndaş cəmiyyəti fəalları "Minadan azad dünya üçün qlobal təşəbbüs" adlı petisiyaya başlayıb.

AZƏRTAC xəbər verir ki, petisiya "Jotform" beynəlxalq platformasında "Dünya Qafqazda sülh üçün" ("World for Peace in Caucasus") adlı beynəlxalq kampaniya çərçivəsində elan olunub.

Petisiyada deyilir ki, minalar və partlamamış hərbi sursatlar (PHS) mülki əhalinin sağlamlığı, həyatı və təhlükəsizliyi üçün ciddi təhlükə yaradır, münaqişələr bitdikdən sonra da minalar insanları öldürməyə və şikəst etməyə davam edir. Minalar ömürlük əlilliyə səbəb olur, ailələrin faciəsinə çevrilir.

Kampaniya BMT-yə üz tutaraq bəyan edir ki, dünyada 60 milyon insan hələ də mina təhlükəsi altındadır. Laos Xalq Demokratik Respublikası, Anqola, Azərbaycan, Kamboca, Konqo Demokratik Respublikası, Vyetnam dünyanın mina ilə ən çox çirklənmiş ölkələri sırasındadır.

Müraciətdə müxtəlif ölkələrlə yanaşı, Azərbaycana da geniş yer ayrılıb. Bildirilir ki, Azərbaycan mina problemindən xeyli əziyyət çəkir. Son 30 ildə Azərbaycanda 3400-dən çox insan mina qurbanı olub, onların 90 faizi mülki şəxslərdir.

Kampaniya müəllifləri bəyan edirlər ki, Ermənistan Azərbaycan ərazilərini minalayıb, 2020-ci ildə 44 günlük müharibədən sonra da bu proses dayanmayıb. Azərbaycan yalnız Laçın yolunda sərhəd-keçid məntəqəsi qurduqdan sonra vəziyyət nəzarətə götürülüb.

Müraciət müəllifləri dəhşətə gəlib ki, bu il sentyabrın 19-20-də aparılan son antiterror tədbirləri nəticəsində Azərbaycan 480 kilometrlik xətt boyunca Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən azı yarım milyon əlavə minanın yerləşdirildiyini aşkarlayıb.

Müəlliflər tələb edib ki, Ermənistan yeni basdırılmış minaların da xəritələrini dərhal Azərbaycan dövlətinə təhvil verməlidir.

Xarici QHT, vətəndaş cəmiyyəti fəalları Prezident İlham Əliyevin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi "minasız dünya" məqsədinin elan edilməsi təşəbbüsünü alqışlayıblar. Onlar BMT-yə çağırış ediblər ki, qlobal mina probleminə diqqəti artırsın.

Müraciət ciddi rezonans doğurub, yeni elan edilməsinə baxmayaraq, artıq 10-a yaxın ölkədən 100-dən çox vətəndaş cəmiyyəti fəalı minalara qarşı qlobal səfərbərlik kampaniyasına qoşulduğunu bəyan edib, bu problemin qlobal həllinə dəstək veriblər.

# Rusiya Xəzər flotiliyasının gəmiləri Bakıya dostluq səfəri edib

Oktyabrın 10-da Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının iki hərbi gəmisi qeyri-rəsmi dostluq səfəri ilə Bakıya gəlib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, gəmi heyətləri Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin nümayəndələri tərəfindən qarşılanıblar.

Səfər çərçivəsində gəmi heyətlərinin mədəni və tarixi abidələrlə tanışlıq üçün Bakı şəhərində gəzintisi, o cümlədən idman yarışı üzrə yoldaşlıq görüşünün keçirilməsi planlaşdırılıb.



# Daha 88 nəfər doğma yurduna qovuşdu





Uzun illər ərzində dağıdılıb viran qoyulan, xarabazarlığa çevrilən torpaqlarımız artıq əzəli sahiblərinə qovuşub. Böyük Zəfərimizdən 3 il keçməsinə baxmayaraq, düşmən tapdağından azad edilən ərazilərimizdə sürətlə bərpa-quruculuq işləri aparılır, kəndlər və şəhərlər yenidən yaradılır, yeni həyat qurulur.

Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın və Füzuliyə məcburi köçkünlərin qayıdışı təmin olunub və bu istiqamətdə işlər sürətlə davam etdirilir.

## Bu günədək 2385 sakin Qarabağ və Şərqi Zəngəzura qayıdıb

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 21 ailə (88 nəfər) köçürülüb. Köçürülən ailələr şəhərdə yenidən tikilən evlərdə məskunlaşıblar. Bununla da Füzuli şəhərində 165 ailə, yəni 602 nəfərin daimi məskunlaşması təmin edilib.

Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Böyük qayıdış çərçivəsində indiyədək 133 ailə (649 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 247 ailə (956 nəfər) Laçın şəhərinə, 165 ailə (602 nəfər) Füzuli şəhərinə, 20 ailə (88 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bu günədək 2 min 385 keçmiş məcburi köçkünün həsrət və nisgilinə son qoyulub.

Qeyd etmək lazımdır ki, 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin məskunlaşması nəzərdə tutulur.

## İşğaldan azad olunmuş torpaqlarda həyat yenidən canlanır

Böyük qayıdış sürətlə davam edir. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına köçür, bu yerlərdə həyat yenidən öz axarına qayıdır. Otuz il öncə ahnalə ilə yurdlarından didərgin salınan soydaşlarımız fərəh, qürur və ümidlərlə ömürlərinin yeni səhifəsinə başlayırlar.

Görülən uğurlu işlərin və dövlət başçısına olan inamın nəticəsidir ki, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtması ilə bağlı keçirilmiş sorğuya görə, insanların əksəriyyəti dədə-baba yurdlarına geri qayıtmaq arzusundadırlar. Hətta azad olunmuş ərazilərə qayıtmaq istəyən insanlardan ibarət növbə yaranıb. Xalqımızın bu sevincinin, qürurunun və güvəninin səbəbkarı isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Erməni terrorunun günahsız qurbanlarının qisası alınıb

## Separatçıların Gəncəni dördüncü dəfə bombalamasından üç il ötür

2020-ci ilin payızında Azərbaycan xalqı İkinci Qarabağ müharibəsindən xəbərlər gözləyirdi. Hər kəs bilirdi ki, müharibə qansız-qadasız olmur. Odur ki, cəbhədə əlisilahlı düşmənə - Ermənistan silahlı qüvvələrinə qarşı döyüşən, bizi qələbələrlə sevindirən, qürurlandıran əsgərlərimizin, zabitlərimizin həyatından nigaran idik. Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsinin ilk günlərindən irəliləyir, otuz ilə yaxın erməni əsarətində qalan ərazilərimizi azad edirdi...

Belə bir vaxtda düşmən raket zərbəsini namərdcəsinə evlərimizə endirməyə başladı. Separatçıların silahlı qüvvələri aldığı əmri yerinə yetirərək Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən dinc əhalinin yaşayış məskənlərini hədəfə aldı. Gəncə, Bərdə, Beyləqan, Tərtər və digər yerlər düşmənin amansız hücumlarına məruz qaldılar...

Ermənistan silahlı qüvvələri İkinci Qarabağ müharibəsi başlayan gündən - 2020-ci il sentyabrın 27-dən yaşayış məntəqələrimizi atəşə tutaraq Naftalan şəhərində bütöv bir ailəni məhv etdi. Sentyabrın 28-də Tərtər şəhərini və Birinci Qarabağ müharibəsində qaçqın düşən azərbaycanlılar üçün inşa edilən Şıxarxı atəşə tutdular. Sonrakı günlərdə də Tərtər rayonundakı şəhər, qəsəbə və kəndləri artilleriya, raket və kasset silahlarla bombardman etməklə çox sayda mülki insanın ölümünə səbəb oldular.

Ermənistanın hədəfində İkinci Qarabağ müharibəsinin ilk günlərindən döyüş bölgəsindən uzaq olan Azərbaycanın ikinci böyük şəhəri - Gəncə də vardı. 2020-ci ilin oktyabrında işğalçı ölkənin silahlı qüvvələri Gəncəni 5 dəfə ayrı-ayrı zamanlarda bombaladı. Şəhər birinci dəfə oktyabrın 4-də Ermənistan silahlı qüvvələri tərəfindən ballistik raketlə vuruldu. Hücuma görə məsuliyyəti rəsmi olaraq qondarma "Dağlıq Qarabağ Respublikası" rəsmiləri öz üzərinə götürdülər. Düşmən tərəfindən Gəncənin bombalanması nəticəsində 1 mülki şəxs şəhid oldu, 32 mülki şəxs yaralandı.

Səhəri gün qədim Gəncəyə ikinci dəfə Ermənistan silahlı qüvvələrinin hücumu oldu. Ermənistan ərazisindən atılan raket Gəncənin "Grand Qafqaz" Ticarət Kompleksinə düşdü. Hücum nəticəsində 3 mülki şəxs müxtəlif dərəcəli xəsarətlər aldı. Oktyabrın 5-də səhər saatlarından etibarən Beyləqan rayonu da Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşinə məruz qaldı.

Gəncəyə növbəti hücum oktyabrın 8-də gecə saatlarında oldu. Həlak olan və yaralananlar olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi.

Rusiya Federasiyasının vasitəçiliyi ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 2020-ci il oktyabrın 10-u saat 12.00-dan humanitar atəşkəsə riayət edilməsi barədə razılığa gəlinsə də, işğalçı dövlət buna əməl etmədi. Ermənistan beynəlxalq hüququn norma və prinsipləri, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokolları kimi humanitar atəşkəs rejiminin tələblərini də pozdu. Oktyabrın 11-də gecə saat 02 radələrində Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binası Ermənistan silahlı qüvvələrinin raket atəşinə məruz qaldı. Azərbaycan Müdafiə Nazirliyi bəyan etdi ki, Ermənistanın Berd rayonunda yerləşən erməni silahlı qüvvələri Gəncəni "Skad" ballistik raketlərindən atəşə tutub. Bu, Ermənistan silahlı qüvvələrinin Gəncəyə dördüncü hücumu idi. Düşmən raket hücumu ilə şəhərdəki infrastruktura böyük zərər vurdu. Ümumilikdə 31 mənzil tamamilə dağıdıldı, hadisə yerində və onun yaxınlığındakı obyektlərə, avtomobillərə ciddi ziyan dəydi. Hücumdan ümumilikdə 205 nəfərin yaşadığı 95 mənzil zərər gördü. Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə dördüncü hücumu nəticəsində 10 nəfər həlak oldu, 40 nəfər yaralandı.

Azərbaycan hər zamankı kimi düşmənə döyüş meydanında cavab verdi. Gəncəyə hücuma cavab olaraq, oktyabrın 14-də Azərbaycan Silahlı Qüvvələri Kəlbəcər bölgəsində yerləşən 3 R-17 Elbrus taktiki raketini məhv etdi. Həmin raketlərin Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini hədəfə aldığı açıqlandı.

Təəssüf ki, Gəncə şəhərinə dördüncü hücumundan sonra da Ermənistan silahlı qüvvələri dinc insanları hədəfə almağa son qoymadı. Oktyabrın 17-də, təxminən yerli vaxtla saat 01:00-da erməni silahlı qüvvələri yenidən "Skad" ballistik raketləri ilə Gəncəni atəşə tutdular. Hücum nəticəsində evlər dağıldı, xeyli sayda mülki şəxs dağıntıların altında qaldı. 15 nəfər həlak oldu, 55 nəfər yaralandı.

Müharibə ərazisindən kənarda yerləşən Gəncə şəhərinin 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərdə raket və ağır artilleriya silahları ilə bombalanması nəticəsində 10 qadın, 6 azyaşlı olmaqla 26 nəfər şəxs həlak oldu, 57 qadın, 32 azyaşlı olmaqla 175 nəfər yaralandı. Hücumlar nəticəsində şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi.

Dünya kimlərin qatil olduğunu gördü, bildi. BMT, Avropa İttifaqı və Türkiyə raket hücumlarına görə Ermənistanı qınadı. Lakin dinc, günahsız insanların qatilləri beynəlxalq aləmdə layiq olduqları cəzanı almadılar.

Cəzasızlıq cinayətkarları daha da azğınlaşdırdı. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdıqdan sonra da işğalçı, terrorçu ermənilər əməllərindən əl çəkmədilər. Azərbaycanın Qarabağ bölgəsini tərk etməmiş Ermənistan silahlı qüvvələrinin birləşmələri və kriminal xunta rejimi sabitliyin, təhlükəsizliyin bərqərar olmaması üçün təxribatlar törətməkdə davam etdilər. Nəhayət, Azərbaycan Ordusu bu ilin 19-20 sentyabrında apardığı lokal xarakterli antinerror tədbirləri zamanı düşmənləri diz çökdürdü. Sentyabrın 20-də xalqa müraciəti zamanı Prezident İlham Əliyev bəyan etdi ki, biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik: "Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar".

Qəsbkarların, qatillərin, terrorçuların bundan sonrakı yeri, məkanı Azərbaycanın həbsxanalarıdır. Vaqif Xaçatryan, xunta rejiminin sabiq "dövlət naziri" Ruben Vardanyan, "Daşnaksütyun" partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan, qondarma "Dağlıq Qarabağ Respublikasının Müdafiə Ordusu komandanının birinci müavini" Davit Manukyan, həmçinin qondarma qurumun "prezident"ləri Arkadi Qukasyan, Bako Sahakyan, Arayik Harutyunyan artıq tutularaq törətdikləri çoxsaylı cinayət əməllərinə görə Azərbaycan qanunları qarşısında cavab verməyə başlayıblar.

Bu il oktyabrın 3-də Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Xankəndi şəhərində saxlanılan Arayik Harutyunyana Cinayət Məcəlləsinin çoxsaylı maddələri ilə ittiham elan edilir. DTX-nin məlumatında bildirilib ki, istintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin Arayik Harutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycan Respublikasının Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Göründüyü kimi, qondarma, cinayətkar rejimin başçısı İkinci Qarabağ müharibəsi dövründə Gəncə şəhərində və Bərdə rayonunun yaşayış məntəqələrində törədilən cinayətlərə, mülki insanlarımızın qətllərinə görə də cavab verməlidir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycanda yeni ştam aşkarlanmayıb

2023-cü ilin mayında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19 pandemiyasının başa çatdığını elan etsə də, son aylar bir çox ölkədə yeni subvariantlara yoluxanların sayının sürətlə artması müşahidə olunur.

Koronavirusun yeni ştamları olan "Eris" ("EG.5") və "Pirola" ("BA.2.86") qısa zamanda bütün dünyada yayılaraq, kütləvi yoluxmalara səbəb olub. Elə buna görə də avqustun 9-da ÜST tərəfindən COVID-19-un bu ştamları "nəzarətdə saxlanılan variantlar" siyahısından çıxarılaraq, "diqqət tələb edən" variantlar siyahısına daxil edilib.

## Yoluxma sayı artıb

Azərbaycanda oktyabrın 2-dən 8-nə qədər COVID-19 infeksiyasına 361 yeni yoluxma faktı qeydə alınıb, 359 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, analiz nümunələri müsbət çıxan 5 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 833 min 550 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 822 min 843 nəfər müalicə olunaraq sağalıb, 10 min 337 nəfər vəfat edib, aktiv xəstə sayı isə 370 nəfərdir. Ölkədə son həftə ərzində 4 min 280, hazırkı dövrədək isə 7 milyon 692 min 353 test aparılıb.

Qeyd etmək lazımdır ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb. COVID-19-un ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 yanvar saat 06:00-dək uzadılıb.

## COVID-19 daim nəzarətdədir

TƏBİB-in Tibbi Xidmətlərin İnkişafı Departamentinin Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin baş məsləhətçisi Turan İbrahimova bildirir ki, payız-qış mövsümünün gəlməsi ilə kəskin respirator virus infeksiyalarına yoluxmaların sayının artması gözləniləndir: "Bunu birbaşa "Pirola" və ya "Eris" variantının yüksək yoluxduruculuğu ilə əlaqələndirmək doğru olmaz. İndiyə qədər olan müşahidələr göstərir ki, son variantlar simptomatik olaraq digər COVID-19 ştamlarından fərqlənmir. Xəstəlik özünü əzələ ağrıları, yorğunluq, burun axması, öskürək, qızdırma kimi simptomlarla büruzə verir".

T.İbrahimova qeyd edir ki, yoluxma riskindən qorunmaq üçün hospitalizasiya riski yüksək olan şəxslər hər zaman müvafiq tədbirlərlə özlərini qorumağa davam etməlidirlər. Kütləvi məkanlarda maskadan istifadə, sosial məsafənin qorunması, xəstələrlə təmasdan çəkinmək tövsiyə olunan tədbirlərdəndir.

Ölkəmizdə yeni subvariantlara yoluxma faktı aşkarlanmadığını vurğulayan ekspert bu halla rastlaşsaq belə TƏBİB-in tabeliyindəki tibb müəssisələrində bütün növ kəskin respirator infeksiyaların müalicəsi üçün zəruri infrastrukturun mövcud olduğunu bildirir: "COVID-19-a yoluxan şəxslərin müalicəsi üçün xüsusi ayrılan Məhəmmədi modul tipli xəstəxana da fəaliyyət göstərməkdədir. Virus mutasiya etməyə davam edir və yeni subvariantlar formalaşmaqdadır. Bu səbəbdən də koronavirus ÜST və digər ictimai səhiyyə qurumları tərəfindən daim nəzarətdə saxlanılır".

*Ü.XASPOLADOVA,*
*"Azərbaycan"*

# Mərkəzi istilik sistemi nə vaxt işə düşəcək?



Payızın dəyişkən havası artıq özünü göstərməkdədir. Havalar getdikcə soyuyur. Temperatur aşağı düşdükcə, mənzillərin qızdırılması, yəni mərkəzi istilik sistemləri ilə bağlı problem yenə gündəmə gəlir.

Ümumiyyətlə, ölkəmizdə mənzillərin və fərdi evlərin isidilməsi üçün müxtəlif mənbələrdən istifadə edilir. Bakıda və digər iri şəhərlərdə xeyli sayda çoxmənzilli yaşayış binası mərkəzləşdirilmiş qaydada qızdırılır. Mərkəzi istiliyin verilməsi hər il noyabrın 15-də başlayıb aprel ayının 15-də sona çatır. Bu, sovet dövründən qalma köhnə sistemdir və hazırda eyni ilə davam etdirilməkdədir. Amma iqlim dəyişikliyinin yaratdığı reallıqlar fonunda havalar hətta payızda daha tez soyuduğu üçün əhali arasında ciddi narazılıqlar yaranır. Bu baxımdan əksəriyyət istilik təchizatı normativlərinin, yəni fəaliyyət müddəti qrafikinin dəyişdirilməsinin labüd olduğunu qeyd edir. Çünki bəzi illərdə nəinki oktyabr, hətta sentyabrda havanın temperaturunun aşağı düşdüyünün şahidi olmuşuq. Necə deyərlər, dağlara qar düşdüsə, artıq bölgələrimizdə soyuq havanı hiss etməyə başlayırıq.

## Yeni qayda: 1 noyabr - 1 may

"Azəristiliktəchizat"ın yalnız mənzilləri deyil, uşaq bağçalarını, məktəbləri, xəstəxanaları mərkəzi istiliklə təmin etdiyini nəzərə alsaq, problemin ciddiliyi özünü aydın göstərər. Ümumilikdə respublika üzrə 3800-dən çox yaşayış binası, 400-dən çox təhsil müəssisəsi, 150-dən çox səhiyyə, 2200-dən çox sosial və təsərrüfat obyekti mərkəzi istilik sistemi təchizatına bağlıdır.

Bəzi ekspertlər və qurumlar tərəfindən payız aylarının gah isti, gah soyuq keçməsi nəzərə alınaraq istilik sistemi ilə bağlı sayğac sisteminin tətbiqi məqsədəuyğun hesab olunur. Yəni nə işlədərsən, onu ödəyərsən. Bununla da nə abonent narazı qalar, nə də "Azəristiliktəchizat". Borcluların da sayı azalar.

İllərdir borclu abonentlərlə bağlı problemlər artmaqdadır. Buna səbəb isə bəzilərinin evində istilik batareyası olmadığı halda ona borc bildirişlərinin göndərilməsidir. Qurum isə sakinin evində istilik təchizatının olub-olmadığını bilmədiyi halda borcları hər il üst-üstə yığaraq abonentə faktura göndərir. Bu da təbii ki, böyük narazılıqlara səbəb olur.

Qeyd edək ki, problemin əsas hissəsi, yəni havaların soyuq keçməsi ilə əlaqədar mərkəzi istiliyin daha erkən verilməsi məsələsi Nazirlər Kabineti tərəfindən artıq həllini tapıb. Nazirlər Kabinetinin 5 sentyabr tarixdə "İstilik enerjisindən istifadə qaydaları"nı təsdiq etməsi problemin həlli yolunda mühüm addım oldu.

Qaydalara əsasən, istilik mövsümünün müddəti dağ rayonlarında 1 noyabr - 1 may, digər ərazilərdə isə 15 noyabr - 15 aprel tarixləri nəzərdə tutulur. Əsas məsələ isə istilik mövsümünün başlanması və başa çatması tarixlərinin ölkə ərazisində havanın temperaturundan asılı olaraq "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərarının tələbləri nəzərə alınmaqla həyata keçirilməsidir. Yəni istilik təchizatı müvafiq yerli icra hakimiyyəti orqanını məlumatlandırmaqla müəssisə tərəfindən fərqli tarixlərdə müəyyən edilə bilər. İstilik mövsümünün başlanmasından və ya başa çatmasından 10 gün əvvəl bu barədə istehlakçılara media, müəssisənin rəsmi internet səhifəsi, həmçinin binaların girişində elanlar vasitəsilə məlumat verilməlidir.

## Yeni təkliflər hazırlanır

Məsələ ilə bağlı "Azəristiliktəchizat" ASC-dən sorğumuza cavab olaraq bildirildi ki, qurumun fəaliyyətinin tənzimlənməsi ilə bağlı bir sıra normativ hüquqi aktlar qəbul edilib. Belə ki, Nazirlər Kabinetinin 5 sentyabr 2023-cü il tarixli "İstilik Enerjisindən İstifadə Qaydaları" təsdiq edilib. Bu da müstəqil Azərbaycanda istilik enerjisi sahəsində fəaliyyəti tənzimləyən ilk rəsmi sənəddir.

"İstilik enerjisindən istifadə qaydaları" bu sahədə enerji təchizatı müəssisəsi ilə istehlakçı arasında yarana biləcək bütün nüansları tənzimləmək üçün nəzərdə tutulur. Məhz həmin qaydalara əsasən, ölkə ərazisində rayonlar üzrə istilik mövsümünün başlaması və bitməsi müddəti müəyyən edilir.

Belə ki, təsdiq edilmiş qaydalara əsasən, 14 rayonda - Daşkəsən, Gədəbəy, Xaçmaz, Kəlbəcər, Qəbələ, Quba, Qusar, Laçın, Lerik, Şamaxı, Siyəzən, Şabran, Şuşa və Yardımlıda istilik mövsümü noyabrın 1-də başlayıb mayın 1-də başa çatacaq.

"Azəristiliktəchizat" ASC-nin fəaliyyətinin səmərəliliyinin artırılması, gəlir və xərclərinin optimallaşdırılması, istilik və isti su təchizatı xidmətlərinin sayğaclaşdırılması, istilik təchizatı sistemlərinin bərpası və dayanıqlı istiliklə təmin edilməsi ilə bağlı Nazirlər Kabinetinin sərəncamı ilə təsdiq edilmiş tədbirlər planına əsasən, Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadiyyat Nazirliyi və "Azəristiliktəchizat"a iqlim xüsusiyyətləri nəzərə alınmaqla istilik mövsümünün başlaması, bitməsi ilə bağlı təkliflərin hazırlanmasına dair tapşırıqlar verilib və hazırda qeyd olunan qurumlar tərəfindən müvafiq işlər aparılır.

## Sayğac sisteminə keçid mütləqdir

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov bildirir ki, Bakıda, digər şəhər və rayonlarda mərkəzləşdirilmiş istilik sistemi kommunal islahatlar çərçivəsində həyata keçirilməlidir. Bu, ayrıca tətbiq olunsa, nəsə irəliləyiş əldə etmək çətin olacaq: "Bu gün mərkəzləşdirilmiş istilik sisteminə qoşulmuş binaların çoxunda istilik üzrə ödənişlərin yığılmasında problem var. Çünki tariflər düzgün müəyyənləşdirilməyib. Əvvəllər otaq sayına görə həmin mənzillərdə istilik batereyaları quraşdırılıb. Amma otaq sayından asılı olmayaraq tariflər standartdır. Avropa və digər ölkələrdə istiliyin verilməsi çoxdan sayğac sisteminə keçirilib. İstifadəçilər sayğac vasitəsilə həm temperaturu tənzimləyir, həm də öz tələbatını müəyyənləşdirir. Nə qədər istehlak edirsə, onun da pulunu ödəyir. Azərbaycanda isə bu sistem qurulmayıb, amma sayğac sisteminə keçid mütləqdir. Ümumiyyətlə, evlərdə istilik batareyalarının olub-olmaması müəyyənləşdirilməyib. Məsələnin ən böyük problemi də elə buradan başlayır".

Ekspert deyir ki, Azərbaycanın müxtəlif ərazilərində hava şəraiti dəyişkən olur. Amma bunu da elə tənzimləmək lazımdır ki, istilik təchizatı olsun, kim nə vaxt istifadə edəcəyini isə özü müəyyənləşdirsin. Bütün problemlər işlərin düzgün qurulmaması ilə bağlıdır. Bəzən oktyabrda hava soyuq keçir, noyabrın 15-də isə mülayimləşir. Ona görə də istilik sistemi fəslə görə deyil, müasir üsullarla tənzimlənməlidir ki, istehlakçı nə vaxt, nə qədər istəyir, istifadə edib pulunu ödəsin.

S.Məmmədov vurğulayır ki, problem ya kommunal islahatlar çərçivəsində, ya da mənzillərin invertarizasiyası aparılaraq həllini tapmalıdır. "İllərlə yığılmış borcları istehlakçıların üstünə göndərirlər. Mənzilində istilik sistemi olmayan, qonşusu xətti kəsib atdığı üçün istilikdən istifadə etməyənlərə də faktura gəlir. Vətəndaş da evində olmayan istilik sisteminə görə o pulu ödəmir. Nəticədə pullar illərlə yığılıb qalır", - deyə o əlavə edib.

Müşahidələrdən və ekspertlərin fikirlərindən bəlli olur ki, mərkəzi istilik təchizatı ilə bağlı qayğılar hələ də mövcuddur. Amma vaxtilə Azərbaycanda bu sahədə mükəmməl təcrübə olub. Bir sıra qonşu ölkələrdə hazırda bu sahədə olan vəziyyət onu deməyə əsas verir ki, istiliklə bağlı qayğıları aradan qaldırmaq mümkündür. Ekspertlərin gəldiyi ümumi rəy belədir ki, sayğac sisteminə keçid hər kəsə sərf edən variantdır. Yəni istiliyin verilməsinin fəslə görə deyil, müasir metodlarla tənzimlənməsi uyğun variantdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Daş yaddaşımız

## Cəbrayılın erməni işğalından azad olmuş qədim abidələri






**Çox zaman nə tarix kitablarını vərəqləməyə ehtiyac qalır, nə də arxivləri araşdırmağa. Abidələr həmin yerlərin keçmişi barədə məlumatlar verir. Çünki ayrı-ayrı dövrlərdə yaşamış sakinlərin həyatı, məişəti, eləcə də fikirləri, düşüncələri, arzuları, xəyalları həmin abidələrdə tarixiləşib. Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Cəbrayıl rayonunun tarixi haqqında da mötəbər mənbələrdən biri qədim abidələridir.**

1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilənədək rayonun ərazisində qədim yaşayış məskənləri, kurqanlar, məscid, hamam, dairəvi və səkkizguşəli türbələr, Xudafərin körpüsü və digər çoxsaylı tarixi-arxeoloji və memarlıq abidələri mövcud idi.

Cəbrayıl rayonunun köhnə qəbiristanlığında aşkarlanan qədim yazıların yazıldığı lövhə parçası, həmin yerdə, yolun qırağında olan iki başdaşı tədqiqatçılara dəyərli faktlar verib. Belə ki, başdaşıların yuxarı hissəsində heyvan təsvirləri - dağ keçiləri və Qobustan qayaüstü təsvirlərini xatırladan müxtəlif tamqalar əksini tapıb. Məlumata görə, Cəbrayılın ətrafında müxtəlif bədii formaya malik qəbirdaşları olub, onlardan qoç heykəli olan ikisi Azərbaycanın digər dağətəyi rayonlarındakı abidələrin analogiyası hesab edilib.

2020-ci ilin payızına, Ermənistan silahlı qüvvələrinin əsarətindən qurtulanadək Şərqi Zəngəzurun və Qarabağın bütün əraziləri kimi, Cəbrayıl rayonu da dağıntılara məruz qaldı. Erməni vandalları işğal müddətində müasir və tarixi əhəmiyyətli bütün tikililəri talan etdilər, uçurdular, dağıtdılar.

İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə - 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək Cəbrayıl şəhəri və rayonun 90 kəndi qəhrəman Azərbaycan Ordusu tərəfindən işğaldan azad olundu. Müharibədə nail olduğu möhtəşəm Zəfər xalqımıza misilsiz sevinc, iftixar hissləri bəxş etdi. İşğaldan azad edilmiş ərazilərimizin qəsbkar ermənilər tərəfindən xarabalığa çevrilməsi isə hər bir azərbaycanlını həm kədərləndirdi, həm də hiddətləndirdi. Azərbaycan tarixini məhv etmək, saxtalaşdırmaq üçün təcavüzkar düşmən yerli və dünya əhəmiyyətli abidələrə divan tutmuşdu. Cəbrayıl rayonunda bir çox abidə də erməni vandalizminə məruz qalmışdı. Onlardan biri "Başıkəsik günbəz"di. Üstü açıq olduğuna görə "Başıkəsik günbəz" adlandırılan bu abidə XIII-XIV əsrlərə aid edilir. Günbəz işğaldan qabaq bərpa olunmuşdu. İşğal müddətində divarları bir neçə yerdən dağıdılmışdı. Günbəzin yerləşdiyi Dağ Tumas kəndi 2020-ci il 23 oktyabrda işğaldan azad olunmuşdu.

Həmin il oktyabrın 30-da işğalına son qoyulan Xubyarlı kəndi qədim türbələri ilə tanınırdı. XV əsrə aid "Dairəvi" türbə, XVI əsrə aid Səkkizguşəli türbə də xüsusi təmir-bərpa briqadası tərəfindən Cəbrayıl rayonunun işğalından əvvəl tam bərpa edilmişdi. Bu abidələr də sonradan işğalçılar tərəfindən dağıdılmışdı.

Erməni vandalizminə məruz qalan daha bir abidə isə Cəbrayıl rayonunun Şıxlar kəndi yaxınlığında yerləşən Şıxlar türbəsidir. XIV əsrdə inşa olunmuş bu türbənin günbəzinin yuxarı hissəsi işğal zamanı dağıdılmışdı. Şıxlar kəndi 2020-ci il oktyabrın 22-də Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmişdir.

Rayonun başqa bir kəndi - Çələbilər isə həmin ilin 26 oktyabrında azadlığına qovuşdu. Bu kənddə XVI əsrə aid olan, Məhəmməd İbn Hacı Qaraman Əhmədli tərəfindən hicri 1088, miladi 1678-ci ildə tikilən məscid-mədrəsə yerləşir. Məscid kompleksi ərazisində xüsusi otaqlar, hücrələr mövcud olub. Həmin hücrələrdə şagirdlərə dini və dünyəvi elmlər tədris edilib. Kənd 1993-cü ildə erməni işğalına məruz qalanadək məscid-mədrəsə kompleksi yüksək səviyyədə bərpa edilərək ilkin formasını almışdı.

1980-ci il dekabrın 8-də yaradılan Cəbrayıl Rayon Tarix-Diyarşünaslıq Muzeyində rayonun tarixi ilə bağlı 19 minə yaxın eksponat toplanmışdı. 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin hücumları zamanı muzeyin təxminən 16 minə yaxın eksponatını xilas etmək mümkün oldu. Muzeydə daşınması çətin olan bir sıra əşyaları, ümumilikdə 2 mindən artıq eksponatı ermənilər işğal dövründə məhv etmişdilər.

Cəbrayıl Rayon Tarix-Diyarşünaslıq Muzeyinin filialı kimi 1985-ci ildə yaradılan Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun xatirə muzeyində eksponatların sayı 800-ə çatdırılmışdı. Cəbrayıl rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunana qədər Cəmil Əhmədovun xatirə muzeyindən çox az sayda eksponat Bakıya gətirilərək Muzey Mərkəzinə təhvil verilmişdi və İstiqlal muzeyində qapalı şəraitdə saxlanılmışdı.

Cəbrayıl rayonu Xudafərin körpüləri ilə də məşhurdur. Körpü Cənubi Azərbaycanla Şimali Azərbaycanın Orta əsr şəhərlərini birləşdirən karvan yolunun üstündə inşa olunub. Böyük İpək yolu üzərində yerləşib. Ümumiyyətlə, bu körpülər həm ölkədaxili və ölkələrarası, həm də qitələrarası əlaqələrdə faydalı idi. Xudafərin körpüsü eyni zamanda hərbi-strateji əhəmiyyətə malik olub.

Əsrlər boyu Araz çayı üzərində çox körpülər salınıb. Onlardan ikisi Cəbrayıl rayonu ərazisində dövrümüzədək qalıb. Aralarında 750 metr məsafə olan bu körpülər çay yatağının ən əlverişli keçidlərindən olan Xudafərin dərəsində salınıb. İri qayalardan körpü tağları üçün möhkəm təməl kimi istifadə edilib.

Körpülərin böyüyü on beş aşırımlı olub, bişmiş kərpic və çaydaşından tikilib. Digəri - on bir aşırımlı körpü isə daşdan inşa olunub, yonulmuş daş lövhələrlə üzlənib. Tədqiqatçıların qənaətincə, bu körpü antik körpü qalıqları üzərində yenidən inşa edilib. El arasında "Sınıq körpü" adı ilə məşhurlaşmasının səbəbi on bir aşırımlı Xudafərin körpüsünün yalnız üç orta tağının salamat qalmasıdır.

1993-cü ildən 2020-ci ilədək Xudafərin körpüləri erməni əsirliyində qalıb. 2020-ci ilin 18 oktyabrında Ermənistan silahlı qüvvələrinin əsarəti sona yetib. Tarixi hadisələrin şahidi olan, vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsündə indi Azərbaycanın müstəqilliyinin rəmzi - üçrəngli, ay-ulduzlu bayrağı qürurla dalğalanır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Rəssamlarımız

## Çoxsaylı sənət nümunələrinin müəllifi



**Azərbaycan qrafika sənətində ən məşhur plakatçı rəssamlardan biri də Hacıağa Məmmədcavad oğlu Nəzərovdur. Sənətkarın bu il 100 yaşı tamam olur.**

Əməkdar rəssam Hacıağa Nəzərov Bakı şəhərində anadan olmuşdur. O, rəssamlıq sənətinə gəlişini belə izah edirdi: "Rəssam olmaq həvəsi məni 5-ci sinifdən Pionerlər Evindəki rəsm dərnəyinə gətirdi. Bizim nəsildən incəsənəti sevən, bu və ya başqa sənət sahəsində çalışan çoxdur. Atamın əmilərimdən biri nəfəsli alətlərdə yaxşı ifa edirdi, Opera və Balet Teatrının solisti idi. Atamın ortancıl əmisi qarmon ifaçısı idi. O biri əmisi Nəcəf Rasim isə peşəkar rəssam olmuşdur. Mən belə bir mühitdə böyümüşəm". H.Nəzərov 1941-1945-ci illər müharibəsinin başlanması ilə əlaqədar Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsilini yarımçıq qoyaraq müharibəyə yollanır. 1943-cü ildə müharibədən qayıtdıqdan sonra Musiqili Komediya Teatrında tərtibatçı rəssam vəzifəsində işləyir (1944-1948). H.Nəzərov rəssamlıq biliklərini artırmaq məqsədilə təkrar Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil alır (1948-1951). O, 1951-ci ildən müstəqil yaradıcılıq fəaliyyətinə başlayır. H.Nəzərov demək olar ki, ömrünü plakat sənətinə həsr etmişdir. Rəssam deyirdi ki, indiyə qədər özü üçün ayrıd edə bilməyib ki, plakatçı rəssam olmağı təsadüfdür, yoxsa zərurət. Təsadüflər yaradıcılıq taleyində çox olub. Texnikumun rəngkarlıq şöbəsini bitirən rəssama o zaman "Azərnəşr" tərəfindən bir plakat sifariş olunur və bəyənilib, kütləvi tirajla çap edilir. Bunun ardınca 2-ci, 3-cü sifariş olur. Beləliklə də, o, plakatçı rəssam kimi tanınmağa başlayır.

Hacıağa Nəzərov yaradıcılığı dövründə diqqəti cəlb edən yüksək bədii təsir qüvvəsi və dərin məzmunu ilə seçilən yüzlərlə uğurlu plakat əsəri yaratmışdır. Rəssamın səlis ifadə gücünə malik, özündə dolğun məna daşıyan plakat əsərlərindən "O olmasın, bu olsun" (1959, kinoplakat), "Cəfər Cabbarlı" (1960), "M.F.Axundov" (1962), "M.F.Axundov - 150" (1963), "Onlara sülh lazımdır" (1961), "Səadət" (1963), "Qoy həmişə bahar olsun" (1965), "Yaz gəldi, səpinə başla" (1968), "Həmişə sülh olsun" (1980), "Ağ şanı, qara şanı" (1980), "Elin süfrələrini bəzər meyvələr" (1984) və başqalarının adlarını qeyd etmək olar. Rəssam o dövrün ictimai siyasi tələblərinə uyğun plakat nümunələri də az yaratmamışdır. Amma onlar bədii və texniki işlənilmə ustalığı ilə fərqlənsələr də, bu günün reallıqları ilə uzlaşmırlar. H.Nəzərov yaradıcılığı dövründə bir çox yerli və beynəlxalq əhəmiyyətli sərgidə iştirak etmiş, əsərləri SSRİ-nin elmi-texniki



nəşriyyatlar cəmiyyətinin (1960) və SSRİ Rəssamlar İttifaqının İdarə Heyətinin (1966), (1973) diplomlarına layiq görülmüşdür. H.Nəzərov 1982-ci ildə Azərbaycanın Əməkdar rəssamı fəxri adına layiq görülmüşdür. Onun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və digər xarici ölkə muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Bakıda rəssamın əsərlərindən ibarət fərdi sərgiləri təşkil olunmuşdur (1973, 1981).



H.Nəzərovun yaradıcılığında dəzgah rəngkarlığının portret, mənzərə və natürmort janrlarında yaratmış olduğu əsərlər xüsusi yer tutur. O, plakatçı rəssam kimi tanınmasına baxmayaraq, yaradıcılığının bütün dövrlərində aparmış olduğu bədii axtarışlarını və müşahidələrini maraqlı təsviri sənət tablolarında təcəssüm etdirə bilmişdir. H.Nəzərovun portret əsərlərindən "Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun portreti" (1966), "Şair İsmayıl bəy Nakamın portreti" (1961), "Şair Mikayıl Müşfiqin portreti" (1970), "C.Cabbarlı və M.Müşfiq Xızıda" (1980), "Hüseyn Cavid" (1983), mənzərə əsərlərindən "Qarlı gün" (1957), "Buzovna mənzərəsi" (1958), "Lahıc mənzərəsi" (1959), "Yağışdan sonra" (1959), "Yaylaq" (1979), "Dağlar" (1980), "Mavi dağlar" (1980), "Günəşli gün" (1980), "Dağ çayı" (1980), natürmort əsərlərindən isə "Mis qablar" (1976), "Güllər" (1980), "Çörəklə natürmort" (1983) və başqalarını göstərmək olar.

H.Nəzərov portret əsərlərində yaratdığı qəhrəmanının daxili dünyasını təsvir etmək üçün onun keçdiyi həyat yolunu və mənəvi dünyasını yaxından təhlil edib, öyrənirdi. Bunsuz bədii və texniki işlənilmə ustalığı ilə seçilən uğurlu sənət nümunəsi yarada bilməzdi.

Rəssam M.Müşfiqi mavi dənizin fonunda, qaya parçasının üstündə ağ geyimdə əyləşərək xəyallar aləmində təsvir etmişdir. Dəniz şairin azad ilhamını, qaya



parçası möhkəmliyini, bəyaz geyim isə saflığını, təmizliyini, ülviliyini təcəssüm etdirir. Dalğın baxışlı şairin çöhrəsindən və yanında yazılmamış şeir dəftərçəsi və qələmdən onun nakam həyatdan köçməsi ilə nə qədər şeirlərinin ağ vərəqlər üzərinə köçürülmədiyi təəssüratını yaradır.

Rəssam Hüseyn Cavidin portretini də ustalıqla kətanda canlandıra bilib. Şairin irigövdəli ağaca söykənərək oturmuş vəziyyətdə sol əlində kitab, sağ əlini əsası ilə dizinə söykəmiş şəkildə ciddi baxışları irəliyə doğru yönəlib. Tablonun fonunda sıldırım qayalar və coşğun axan çay təsvir olunub. Bununla rəssam milli köklərə bağlı olan əzəmətli, dağ vüqarlı şairin nakam taleyinin rənglərin təsirli dili ilə simfoniyasını "bəstələyib".

H.Nəzərov 10-dan artıq xarici ölkədə yaradıcılıq ezamiyyətində olmuşdur. Rəssamın Yuqoslaviyaya səfərindən sonra 1981-ci ildə həmin ölkəyə həsr olunmuş "Yuqoslaviya" adlı fərdi sərgisi Dostluq evində keçirilmişdir. Sərgidə rəssamın "Sarayevoda monastr", "Adriatik dənizi", "Məsçid. Yuqoslaviya", "Sarayevoda bazar", "Nesembrada küçə", "Loveçdən bir görünüş" və başqa əsərləri nümayiş olunmuşdur.

H.Nəzərov həmçinin C.Cabbarlının "Sevil" pyesinə (1958) və Məhcur Şirvaninin "Qisseyi Şirzad" poemasına (1962) illüstrasiyalar yaratmışdır.

Bu il 100 illik yubileyi qeyd olunan rəssam Hacıağa Nəzərov Azərbaycan təsviri sənət tarixində əbədi yaşayacaqdır.

*Əsəd QULİYEV,*
*Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas*

● Azərbaycan Teatrı-150

## Səhnə uğurları qazanan 95 yaşlı teatr

**Ötən əsrin iyirminci illərində Azərbaycanda teatr sənəti inkişaf yoluna üz tutur, yeni dram dərnəkləri yaranırdı. Xəzər dənizçiliyi klubunun nəzdindəki 40 saylı pioner dəstəsinin fəaliyyətini genişləndimək məqsədilə şəhər komsomol komitəsi yanında uşaqlardan ibarət dram dərnəyi təşkil edildi.**



Dərnəyə rejissor təyin olunan Ağadadaş Qurbanovun həmin vaxt on dörd yaşı vardı. Onun quruluşunda Lətif Kərimlinin "Fırtına" tamaşası 1927-ci il martın 15-də nümayiş edildi. Həmin tamaşa 1927-ci il mayın 31-də Əli Bayramov adına qadınlar klubunda təşkil edilən Azərbaycan Lenin Komsomolu Gənclər İttifaqının (LKGİ) VIII qurultayı nümayəndələrinə təqdim olundu. Qurultay nümayəndələri Bakıda Uşaq Teatrı yaratmaq haqqında Azərbaycan Xalq Maarif Komissarlığı qarşısında məsələ qaldırdılar. Bakı Uşaq Teatrı 1928-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə rəsmi fəaliyyətə başladı. Teatrın ilk aktyorları və rejissorları Ağadadaş Qurbanov, Məmmədağa Dadaşov, Yusif Əminli, Minə Abdullayeva, Yusif Dadaşov, Susanna Məcidova, Cavahir İskəndərova, Süleyman Ələsgərov, Hüseynağa Sadıxov, Kərim Həsənov, Zəfər Nemətov, Məhərrəm Haşımov, Əliməmməd Atayev və başqaları oldular.

1928-ci il noyabrın 6-da teatrın rus bölməsi N.Smirnov və S.Şerbakovun "Beş nəfər" adlı pyesi əsasında hazırlanmış eyniadlı tamaşa ilə, 1930-cu il yanvarın 30-da isə Azərbaycan bölməsi N.İvanterin "Qırmızı qalstuk əleyhinə" adlı tamaşası ilə fəaliyyətə başladı.

Bakı Uşaq Teatrı 1936-cı il iyulun 18-dən Azərbaycan Xalq Maarif Komissarlığının əmrinə əsasən, "Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı" adlandırıldı. Teatra rus yazıçısı Maksim Qorkinin adı verildi. 1936-cı ildə Moskvada Rejissorluq fakültəsini başa vuran Məhərrəm Haşımov teatrın baş rejissoru təyin edildi. O, V.Lyubimovanın "Seryoja Streltsov" əsərini teatrın hər iki bölməsində uğurla səhnələşdirdi.

Görkəmli uşaq yazıçısı Abdulla Şaiq 1937-ci ildə teatrın ədəbi hissə müdiri təyin edildi. Milli uşaq dramaturgiyası əsasında yaranan ilk səhnə əsərləri nümayiş edildi. Abdulla Şaiqin "Xasay", "Eloğlu", "Fitnə", Mirmehdi Seyidzadənin "Qızılquş", "Nərgiz", Əyyub Abbasovun "Azad", "Məlikməmməd" tamaşaları teatra müvəffəqiyyət gətirdi.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 1940-cı ilin noyabrında Moskvada keçirilən Sovet Uşaq Teatrlarının I Ümumittifaq baxışında iştirakı yaddaqalan oldu. Teatrın yaradıcı kollektivinin təqdim etdiyi Sabit Rəhman və Adil İskəndərovun "Partizan Məmməd", Əliməmməd Atayev və Əhməd Əhmədovun "Seyran" pyesləri əsasında hazırlanmış tamaşaları rəğbətlə qarşılandı.

İkinci Dünya müharibəsindən sonrakı illərdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarında "Fitnə", "Qaraca qız", "Skapenin kələyi", "Polad necə bərkidi", "Hacı Qənbər", "Sevinc" kimi tamaşaçıların marağına səbəb olan tamaşalar diqqət çəkirdi.

1952-ci ildə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı yeni binada öz tamaşalarını nümayiş etdirdi. Sənətşünasların fikrincə, bu teatrın 1950-ci illərdəki fəaliyyəti, xüsusilə Azərbaycan bölməsində "Anacan", "Aprel səhəri", "İki həyat", "Çiçəkli dağ", "Aqil və Sərvinaz", rus bölməsində "Pavlik Morozov", "Sombrero", "Valya Kotik", "Polad üzük" kimi tamaşaları ilə uğurlu oldu.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 25 illik yubileyi 1954-cü il fevralın 28-də təntənəli şəkildə qeyd edildi. 1954-cü il sentyabrın 10-da teatr 26-cı mövsümünə Cəfər Cabbarlının "Yaşar" pyesinin tamaşası ilə başladı. 1950-ci illərdə yeni aktyor nəsli nümayəndələrinin - Firəngiz Şərifova, Osman Hacıbəyov, Rəhilə Məlikova, İrina Vasilyeva, Georqiy Sıqankov, Tamara Razumovskaya və başqalarının teatra gəlişi kollektivi daha da canlandırdı.

"Komsomol poeması" tamaşasının bir qrup yaradıcı heyəti - quruluşçu rejissor Zəfər Nemətov, rəssam Altay Səidov, aktyorlardan Yusif Vəliyev, Hüseynağa Sadıxov, Süleyman Ələsgərov, Osman Hacıbəyov, bəstəkar Fikrət Əmirov və dramaturq İskəndər Coşğun 1967-ci ildə ilk dəfə təsis edilmiş Respublika Lenin Komsomolu Mükafatı laureatı adına layiq görüldülər.

Ümumiyyətlə, teatrşünaslar bu teatrın 1960-cı illərdəki fəaliyyətini xüsusilə səmərəli, öz inkişafı prosesində ən məhsuldar dövr kimi xarakterizə edirlər. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru Zəfər Nemətovun fəaliyyəti isə xüsusi vurğulanır. Həm də bacarıqlı pedaqoq, mahir təşkilatçı olan Zəfər Nemətov baş rejissor olduğu uzun illər ərzində Əminə Yusifqızı, Solmaz Qurbanova, Firdovsi Naibov, Zərnişan Fətəliyeva, Sona Babayeva, Həsən Əbluc, Viktor Semerenko, İvetta Ryabova, Arnold Xarçenko, Nelli Məmmədova, Tatyana Xaritonova və başqa peşəkar aktyor və rejissorlar yetişdirdi.

Sonrakı illərdə estafeti aktyorlar Tariyel Qasımov, Gülşən Qurbanova, Yasin Qarayev, Almaz Mustafayeva, Sona Babayeva, Azər Mirzəyev, Mübariz Əlixanoğlu, Ədalət Məmmədov, Rauf Qəniyev, Konstantin Artyomov, Zoya Xarçenko, rejissorlar Azər Nemətov, Mühərib Tağıyev, rəssam Elçin Məmmədov və başqa istedadlılar qəbul etdilər.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı səmərəli fəaliyyətinə görə, 1978-ci ildə Respublika Lenin Komsomolu Mükafatı laureatı adına, 1979-cu ildə "Şərəf nişanı" ordeninə layiq görüldü.

1989-cu ildə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı tamaşaçılarını yeni - indiki binada qarşıladı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 mart 2009-cu il 41 nömrəli qərarına əsasən, Azərbaycan Dövlət Gənclər Teatrı və 30 sentyabr 2009-cu il tarixli qərarına əsasən, Bakı Kamera Teatrı Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına birləşdirildi. Həmin ilin aprelində əsaslı təmir və yenidənqurma işlərindən sonra teatr yeni texnika və müasir dizaynla təmin edilən binada fəaliyyətini davam etdirdi.

Doxsan beş ildir ki, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı öz yolunu uğurla davam etdirərək milli mədəniyyətimizin inkişafında, vətənpərvərlik hisslərinin aşılanmasında, yüksək əxlaqi keyfiyyətlərin, milli və ümumbəşəri dəyərlərin təbliğində mühüm rol oynayır. Teatrın səhnəsində Azərbaycan, rus və dünya klassiklərinin inciləri hesab edilən əsərlər uğurla tamaşaya qoyulur. Bu illər ərzində teatrda Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Şeyx Sənan" (H.Cavid), "Aydın" (C.Cabbarlı), "Albalı bağı" (A.P.Çexov), "Otello" (U.Şekspir), "Ezop" (G.Fiqeyredo), "Hekayəti xırs quldurbasan" (M.F.Axundov), "Viktoriya" (K.Hamsun), "İfritin kələyi" (Y.Şvarts), "Ələddinin sehirli çırağı" (Ərəb xalq nağılı), "Şelkunçik" E.T.A.Hofman), "Don Kixot" (M.Servantes), "Tanrıya 14 məktub" (E.E.Şmidt), "Oqtay Eloğlu" (C.Cabbarlı), "Dəli yığıncağı" (C.Məmmədquluzadə) və onlarca başqa tamaşalar teatrsevərlərə təqdim edilib.

Teatrın yaradıcı kollektivi həm də dünyanın bir sıra ölkələrində keçirilən beynəlxalq tədbirlərdə, beynəlxalq teatr festivallarında fəal iştirak edərək vətənə diplomlar, mükafatlar və yeni yaradıcılıq təklifləri ilə qayıdıb.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

## İstiqlal Muzeyində növbəti sərgi - "Müqəddəs andım"

**Azərbaycan İstiqlal Muzeyinin təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşərək canlarından keçmiş şəhidlərin əziz xatirəsinə həsr olunmuş "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə çərçivəsində "Müqəddəs andım" adlı növbəti tədbir-sərgi keçirilib.**

Tədbirdə bildirilib ki, Prezident İlham Əliyevin Zəfər muzeyinin və Memorial kompleksin inşası ilə əlaqədar imzaladığı sərəncama əsasən, 2021-ci ilin yanvar ayından Azərbaycan İstiqlal Muzeyi tərəfindən Zəfər muzeyinin fondlarının kompleksləşdirilməsi məqsədilə şəhid ailələri ilə görüşlər keçirilir və şəhidlərin şəxsi əşyaları bu muzey üçün toplanır.

Diqqətə çatdırılıb ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onların qəhrəmanlığını gələcək nəsillərə nümunə göstərmək hər birimizin borcudur. Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.




Sərgidə Vətən müharibəsi şəhidlərinin muzey fondlarında qorunub saxlanılan şəxsi əşyaları, fotoşəkillər, sənədlər və müxtəlif hərbi geyimlər nümayiş olunub.

Sərgi oktyabrın 10-da başa çatıb.

# Görkəmli alim Aida İmanquliyevanın xatirəsi anılıb

Oktyabrın 10-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi görkəmli şərqşünas, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 84-cü ildönümündə alimin məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıb, məzarı üzərinə əklil qoyub.



AZƏRTAC xəbər verir ki, AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva çıxış edərək, Aida İmanquliyevanın öz fundamental tədqiqatları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, eyni zamanda, dünya şərqşünaslığını zənginləşdirdiyini, inkişaf etdirdiyini deyib. Bir alim kimi Aida xanımın maraq dairəsinin geniş və çoxşaxəli olduğunu deyən G.Baxşəliyeva onun çoxsaylı elmi araşdırmalarının əsas tədqiqat obyektinin ərəb məhcər ədəbiyyatı olduğunu, Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini araşdırdığını söyləyib.

Görkəmli alimin elmi və təşkilati fəaliyyətindən danışan Gövhər Baxşəliyeva Aida xanımın elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçdiyini, öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində kiçik elmi işçidən, baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinədək yüksəldiyini qeyd edib. Diqqətə çatdırıb ki, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın bu sahənin inkişafında böyük xidmətləri olub. Onun dərin nəzəri bilikləri, analitik təfəkkürü, geniş erudisiyası, zəngin mütaliəsi, bir neçə Şərq və Qərb dillərini bilməsi sayəsində apardığı tədqiqatlar və yazdığı əsərlər qısa vaxt ərzində alimə nəinki keçmiş ittifaq miqyasında, hətta bir çox xarici ölkələrdə geniş şöhrət gətirib. Dünyaşöhrətli şərqşünaslarla bir sırada adı çəkilən Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun əsərləri bu gün də dönə-dönə oxunur, təhlil və tədqiq edilir, tərcümə olunur və yenidən işıq üzü görür. Bu gün gənc şərqşünaslar bu məktəbin ənənələrini layiqincə davam etdirirlər.

G.Baxşəliyeva Aida xanımın həyatdan erkən getməsinin onun həmkarlarını və tələbələrini hədsiz kədərləndirdiyini və sarsıtdığını söyləyib, alimin əziz xatirəsinin onların qəlbində əbədi yaşayacağını deyib.

AMEA-nın Qadınlar Şurasının sədri, Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, professor Rəna Mirzəzadə və Şərqşünaslıq İnstitutunun əməkdaşları görkəmli alim Aida İmanquliyevanın Azərbaycan ərəbşünaslığına böyük töhfələr verdiyini söyləyib, onun itkisinin tək şərqşünaslığın deyil, bütövlükdə Azərbaycan elminin böyük itkisi olduğunu qeyd ediblər.

Çıxış edənlər görkəmli alimin şərqşünaslıq elminin inkişafındakı mühüm xidmətlərindən, elmi yaradıcılığından, yüksək mənəvi keyfiyyətlərindən söz açıblar. Qeyd edilib ki, Azərbaycan elmində örnək qadın alimlərimizdən olan Aida xanım müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, yeni bir məktəbin əsasını qoyub.

# Bakıda "Korkut Ata" III Türk Dünyası Film Festivalının Zirvə toplantısı olub

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY, Azərbaycan Respublikası Kino Agentliyi və Bakı Media Mərkəzinin birgə təşkilatçılığı ilə paytaxtımızda III "Korkut Ata" Türk Dünyası Film Festivalı keçirilir.



AZƏRTAC xəbər verir ki, festival çərçivəsində oktyabrın 10-da zirvə görüşü təşkil olunub.

Toplantıda TÜRKSOY-un Baş katibi Sultan Raev, qurumun nümayəndələri, Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Qazaxıstandan müvafiq nazirliklərin rəsmiləri, kinematoqrafiya sahəsi ilə bağlı aidiyyəti qurumların məsul şəxsləri, tanınmış kino xadimləri iştirak ediblər.

Daha sonra "113 gün", "Proyekt 2602", "Sən haralısan, durna?", "Mərmər soyuğu", "Himayədar", "30 mövsüm səfərdə", "Hadrut, sən azadsan!", "Nobel qardaşları", "Qoçu", "Mavi quş", "Miras", "Heyelan" ("Sürüşmə"), "İnsan", "Sofiya", "Xəyal quşu", "Gülmira" və digər filmlərin təqdimatı olub.

Festival komitəsinin sədri İhsan Kabil III "Korkut Ata" Türk Dünyası Film Festivalının əhəmiyyətindən bəhs edib.

"TRT Sinema"nın rəhbəri Faruk Güvən qurumun iş prinsipi haqqında məlumat verib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino idarəsinin müdiri Erkin Yılmaz türk kinosunun inkişafı barədə fikirlərini söyləyib.

Türkiyəli tanınmış aktyor Serdar Gökhan çıxışında tədbirdə iştirakından məmnunluğunu ifadə edib. Sonda xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, tədbirin məqsədi türk xalqlarının ortaq dəyərlərini, mədəniyyətini kinoda əks etdirmək, müstəqil türk respublikaları, digər türk muxtar respublikaları ilə birlikdə müştərək film istehsalının inkişafına təkan verməkdir.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Oktyabrın 10-da Baş prokuror Kamran Əliyev Gəncə şəhər prokurorluğunun inzibati binasında Gəncə şəhəri və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Daha sonra Baş prokuror Gəncə şəhərində Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilən terror hadisəsinin olduğu əraziyə gedərək, şəhid olan mülki şəxslərin xatirəsini yad edib.

Qəbulda iştirak edən 74 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

* * *

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı oktyabrın 10-da Masallı rayon Heydər Əliyev Mərkəzində Cəlilabad, Yardımlı və Masallı rayonlarından olan vətəndaşlarla görüşüb.

Komitədən AZƏRTAC-a bildirilib ki, görüşə gələn vətəndaşlar dini icmaların kitablarla təmin edilməsi, dini təhsil, dini maarifləndirmə işinin genişləndirilməsi, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş görüşdə vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

## BİLDİRİŞ

DİN-in Maddi-Texniki Təminat Baş İdarəsi tərəfindən geyim əmlaklarının və fərqlənmə nişanlarının satın alınması məqsədilə keçirilmiş açıq tender proseduru üzrə qalib olmuş şirkətlə müvafiq müqavilə bağlanmışdır.

*Tender komissiyası*


## OXUCULARIN NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 13.10.2023-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı Stolüstü əskinas sayğaclarına və vakuum presləyicilərə texniki qulluğun satınalma prosedurları çərçivəsində keçirilmiş kotirovka üzrə Satınalmalar komissiyasının 20.09.2023 -cü il tarixli qərarına əsasən "R-Service M" MMC qalib elan edilmişdir. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Satınalmalar komissiyası*

Bakı şəhəri Nəsimi rayonu A.Əliyev küçəsi, ev 5, mənzil 34 ünvanında yaşayan Kənan Kərim oğlu Ağayevə Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 25 yanvar 2019-cu ildə verilmiş SA/425 nömrəli Auditor fəaliyyəti lisenziyası itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri Yasamal rayonu H.Cavid prospekti, məhəllə 518, ev 13, mənzil 41 ünvanında yaşayan Əlimuxtar Balağa oğlu Bağırova Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 27 avqust 2021-ci ildə verilmiş SA/317 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, Komissiyanın üzvləri və Katibliyin rəhbərliyi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi
**NATİQ ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi
**NATİQ İNQİLAB OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi
**NATİQ İNQİLAB OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi
**NATİQ İNQİLAB OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi
**NATİQ İNQİLAB OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Ruslan Sadıxova atası
**OQTAY SADIXOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Prokurorluğun veteranı
**FƏRHAD MƏHƏRRƏMOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Siyavuş Novruzov və Səbinə Əliyeva Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi
**NATİQ İNQİLAB OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi
**NATİQ İNQİLAB OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi
**NATİQ ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5346
Sifariş 2616

Qiyməti 40 qəpik